MG
Consulting

# Azərbaycanda QKT-lərin gəlirlərinin tənzimlənməsi



# Azərbaycanda QKT-lərin gəlirlərinin tənzimlənməsi

**Müəlliflər: Quluzadə Məhəmməd**

**Qasımov Azər**

**Rzayev Emin**

**Rəyçi: Əliməmməd Nuriyev**

**İSBN: 9789952832839**

**Bakı-2017**

**Mündəricat**

Giriş: Azərbaycanda QHT-lərin əsas maliyyə mənbələri

1. Özəl mənbələrdən gəlirlər:
   - A. Qrantlar
   - B. İanələr
2. Dövlət mənbələrindən gəlirlər:
   - A. Qrantlar
   - B. Subsidiyalar
   - C. Dövlətdən maliyyələşmənin digər formaları
3. Daxili mənbələrdən gəlirlər:
   - üzvlük haqları
   - sahibkarlıq fəaliyyəti, o cümlədən xidmət müqavilələri
4. QHT-lərin və donorların cəlb olunduğu vergilər:
   - QHT-lərin cəlb olunduğu vergilər
   - donorlar azad olduğu vergilər
   - QHT-lərin və donorların ƏDV-yə cəlb olunması
5. Könüllü fəaliyyətin qanunla tənzimlənməsi
6. Xarici ölkələrdə mövcud innovativ gəlir mənbələri nümunələrinin qısa xülasəsi

<u>Qoşmalar</u>

1. Donorun qeydiyyatına dair ərizə forması
2. Qrantın qeydiyyatına dair ərizə forması (fiziki və hüquqi şəxs)
3. Xidmət müqavilələrinin qeydiyyatına dair ərizə forması
4. İanənin qeydiyyatına dair ərizə ərizə forması
5. Könüllülərlə bağlanmalı müqavilə
6. Xidmət müqaviləsi
7. İnzibati Xətalar Məcəlləsindən çıxarışlar
8. İanə müqaviləsi (hüquqi şəxs maddi formada ianə verdikdə)
9. İanə müqaviləsi (Fiziki şəxs nağd şəkildə ianə verdikdə)
10. İanə verilməsinə dair akt (ianə maddi formada verildikdə)

**Giriş: Azərbaycanda QHT-lərin əsas maliyyə mənbələri**

Azərbaycan qanunvericiliyi qeyri-kommersiya təşkilatları (QKT-lər) üçün qrantlar, ianələr, iqtisadi fəaliyyətlərdən gələn gəlirlər, üzvlük haqları, dövlət büdcəsindən maliyyələşmə və qanunla qadağan olunmayan digər mənbələr də daxil olmaqla maliyyə mənbələrinin çox müxtəlifliyinə imkan verir.[1]

Tarixən Azərbaycandakı QHT-lər üçün əsas gəlir mənbəyi xaricdən gələn vəsait olub. Lakin, 2014-2017-ci illər ərzində xarici maliyyəyə çıxışa ciddi maneələr yaranmışdır. Bunun nəticəsində, qeydiyyat məsələlərində QKT-lərlə müqayisədə biznes üçün daha az məhdudiyyətlər olduğunu nəzərə alsaq, bəzi qruplar QKT yaratmaqdansa biznes təşkilatı yaradıb ənənəvi qeyri-kommersiya fəaliyyəti göstərməyə başlayıblar. Lakin bu materialda biz biznes üçün hüquqi mühitin xüsusiyyətlərini deyil, yalnız QKT-lərə aid qaydaları müzakirə edirik.

QKT-lərin gəlir mənbələrinin strukturuna digər dəyişiklik QKT-lərə dövlətin maliyyə dəstəyinin azaldılmasıdır. Son illər ölkədəki iqtisadi böhran səbəbindən qrant verən əsas dövlət orqanları-Azərbaycan Respublikasının Prezidenti yanında Qeyri-Hökumət Təşkilatlarına Dövlət Dəstəyi Şurası (bundan sonra QHT Şurası) və Azərbaycan Respublikasının Prezidenti yanında Gənclər Fondu (bundan sonra Gənclər Fondu) tərəfindən ayrılan qrantların həcmi azaldılmışdır.[2]

Xarici maliyyəyə çıxışa qoyulan məhdudiyyətlər və dövlət dəstəyinin azaldılması nəticəsində bir çox QKT-lər ianə, üzvlük haqları və xidmət müqavilələri kimi digər yerli maliyyə mənbələrinə daha çox diqqət yetirir. Belə gəlirlərin heç də hamısının vergidən azad olmaması QKT-lər üçün yeni-vergi tutulan və vergi tutulmayan gəlirlər üçün ayrıca mühasibatlığın aparılması problemi yaradır.

Bu materialın məqsədi müxtəlif mənbələrdən gəlir əldə etməyin Azərbaycan qanunvericiliyi ilə yaradılmış əsas imkanları haqqında QKT-lərin məlumatını artırmaq və onları müxtəlif növ gəlir qazanmaq ilə bağlı qanuni hüquq və vəzifələri haqqında məlumatlandırmaqdır.

---

[1] Mülki Məcəllənin 43.5-ci maddəsinə əsasən qeyri-kommersiya hüquqi şəxsi əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən hüquqi şəxsdir. QKT-yə ictimai birliklər və fondlar və hüquqi şəxslərin birliyi daxildir. Bu vəsaitin məqsədi üçün "QKT" və "QHT" ifadələri fərqli yazılmalarına baxmayaraq, eyni mənanı verir.

[2] Məsələn, QHT Şurasına 2016-cı ildəki 6.61 miliyon manatla müqayisədə 2017-ci ildə 5.01 miliyon manat vəsait ayrılmışdır.

**Fəsil 1. Özəl mənbələrdən gəlirlər:**

**A. Qrantlar**[3]

*Giriş*

Bu fəsildə yalnız yerli və xarici özəl mənbələr hesabına verilən qrantların tənzimlənməsi əhatə olunub, dövlət hesabına verilən qrantların xüsusiyyətlərindən növbəti fəsillərdə bəhs olunur.

*Qrant nədir?*

Qrant: "humanitar, sosial və ekoloji layihələri, müharibə və təbii fəlakət nəticəsində ziyan çəkmiş ərazilərdə dağılmış istehsal, sosial təyinatlı obyektlərin və infrastrukturun bərpası üzrə işləri, təhsil, səhiyyə, mədəniyyət, hüquqi məsləhət, informasiya, nəşriyyat və idman sahələrində proqramları, elm, tədqiqat və layihələşdirmə proqramlarını, dövlət və cəmiyyət üçün əhəmiyyət kəsb edən digər proqramları hazırlamaq və həyata keçirmək üçün göstərilən yardımdır."[4] İki fərqli hüquqi termin olan və Azərbaycan qanunvericiliyinə əsasən fərqli qaydalara tabe olan qrant ilə ianə arasındakı fərq haqqında məlumat üçün B bölməsinə baxa bilərsiniz.

*Nə qrant sayılmır?*

Bilavasitə aşağıdakı məqsədlər üçün istifadə edilən maddi yardım qrant sayılmır: (i) mənfəət əldə etmək; (ii) siyasi hakimiyyət uğrunda mübarizə məqsədləri və ya qanunların və digər qanunvericilik aktlarının qəbul etdirilməsi üzrə lobbiçilik fəaliyyəti; (iii) siyasi reklam; (iv) hər hansı siyasi təşkilatın və ya siyasi xadimin seçki kampaniyasının maliyyələşdirilməsi.[5]

*Kimlər qrant ala bilər?*

Aşağıdakı qurumlar və fərdlər qrant ala bilər ("**resipiyent**"):

- Azərbaycan dövləti və Azərbaycanın dövlət büdcəsindən maliyyələşdirilən qurumlar;
- Bələdiyyələr (yerli dövlət orqanları);
- Yerli və xarici QKT-lər, sonuncunun Azərbaycanda qeydiyyatdan keçmiş filial və nümayəndəliyi (bundan sonra XQKT-lər adlanacaq);
- Publik hüquqi şəxslər (dövlət və ya bələdiyyə orqanları tərəfindən yaradılan hüquqi şəxs);
- Azərbaycan Respublikasının fiziki şəxsləri (yəni vətəndaşlar, əcnəbilər və ya vətəndaşlığı olmayan şəxslər)

*Kim qrant verə bilər?*

Aşağıdakı qurumlar və fərdlər qrant verə bilər ("**donor**"):

- Azərbaycanın dövlət büdcəsindən maliyyələşdirilən qurumlar (məsələn, nazirliklər və digər dövlət orqanları);
- Azərbaycan Respublikasının hüquqi və fiziki şəxsləri (məsələn, vətəndaşlar və ya yerli kommersiya və ya qeyri-kommersiya şəxsləri);
- Beynəlxalq təşkilatlar və onların nümayəndəlikləri, xarici hökumətlər və onların nümayəndəlikləri, xeyriyyəçilik, humanitar və başqa ictimai yönümlü beynəlxalq

[3]USAID-in maliyyələşdirdiyi və Chemonics İnternational təşkilatı tərəfindən həyata keçirilən İnkişaf naminə Yerli Bacarıqların Artırılması layihəsi çərçivəsində nəşr olunmuş Azərbaycanda Qrantın Qeydiyyatına dair bələdçi, 2015 (3-cü nəşr) M. Quluzadə.

[4] Qrant haqqında Qanun, 17 aprel 1998-ci il, maddə 1.

[5] Qrant haqqında Qanun, maddə 1.4.

təşkilatlar, maliyyə-kredit institutları, təhsil, elm, səhiyyə, incəsənət və idmanın inkişafı sahələrində fəaliyyət göstərən xarici ictimai təşkilatlar, o cümlədən fondlar, assosiasiyalar, federasiyalar və komitələr, həmçinin birbaşa mənfəət götürmək məqsədi güdməyən xarici hüquqi şəxslərin Azərbaycanda qeydiyyatdan keçmiş filial və ya nümayəndəlikləri (Ədliyyə Nazirliyi (ƏN) ilə saziş bağlamış filial və ya nümayəndəliklər).[6]

Azərbaycanda qeydiyyatdan keçmiş filial və ya nümayəndəliyi olan və qrant vermək üçün ƏN-dən razılıq almış xarici donor yerli QKT-lərə və Azərbaycanda qeydiyyatdan keçmiş filial və ya nümayəndəliyi olan xarici QKT-yə qrant verə bilər.

*Qeydiyyatsız QKT-lər və qrant*
Ədliyyə Nazirliyində hüquqi şəxs kimi qeydiyyatdan keçməmiş qeyri-rəsmi qruplar olan QKT-lər Qrant haqqında Qanuna əsasən resipiyent ola bilməzlər.

*Qrant müqaviləsinin/qərarın məzmunu*
Bütün qrant müqavilələri (qərarlar) yazılı şəkildə tərtib olunmalı, donor və qrant alan və ya donor (donorun qərarı) tərəfindən imzalanmalıdır. Belə müqavilə qrantın məqsədi, qəbulu və istifadə şərtləri, ümumi məbləğ, müddət və qrantın qəbulu və istifadəsi ilə bağlı hesabat tələbi və ya istifadəsində məhdudiyyətlər, qrantla icra ediləcək fəaliyyətləri müəyyən edən hər hansı əlavə şərtləri ehtiva edir.

*Donorun və qrantın qeydiyyat proseduru*
Hazırda qrantın qeydiyyatına dair iki qərar mövcuddur:

- Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası ("Donor qeydiyyatına dair Qaydalar");[7]
- Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası.[8]

Donor verdiyi hər bir qrant üçün razılıq almalı və eyni zamanda, digər qaydalara əsasən, hər bir qrant müqaviləsi qeydiyyata alınmalıdr (gözlənilən qrant resipiyenti və ya donor tərəfindən ƏN-nə təqdim edilməlidir). Bu iki prosedur ayrı-ayrı mövcud olsa da, təcrübədə onları birləşdirmək mümkündür, belə ki, qrantın qeydiyyatı üçün müraciət edən QKT - resipient və donor bir dəfəyə hər iki icazəni almaq üçün tələb olunan bütün sənədləri təqdim edə bilər.

*Qrantın qeydə alınması üçün tələb edilən sənədlərin siyahısı*
Müqavilənin (qərarın) qeydə alınması üçün imzalandığı gündən keçən 30 (otuz) gün ərzində ya qrant alan QKT ya da donor tərəfindən aşağıdakı sənədlər ƏN-ə təqdim edilməlidir:[9]

- Ərizə;
- Müqavilənin (qərarın), qrant alan və donor tərəfindən imzalanan əslinin nüsxəsi;
- Layihə təsvirinin tərəflərin imzaladığı əslinin nüsxəsi (bu həmçinin qrant müqaviləsinin tərkibinə daxil edilə bilər);
- Donor və ya resipiyent fiziki şəxs olarsa, şəxsiyyətini təsdiq edən sənədin surəti;

[6] Qrant haqqında Qanun, Maddə 2.
[7] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 22 oktyabr 2015-ci il tarixli 339 saylı Qərarı ilə təsdiq edilmişdir.
[8] Azərbaycan Respublikası Nazirlər Kabinetinin 5 iyun 2015-ci il tarixli 216 saylı Qərarı ilə təsdiq edilmişdir.
[9] Bəzi hallarda qrant müqavilə ilə deyil donorun birtərəfli qərarı əsasında həyata keçirilir.

- Qurumun nümayəndəsi olmayan şəxs ərizəni təqdim etdiyi halda, onun səlahiyyətini təsdiq edən etibarnamə;
- Qrantın maliyyə-iqtisadi əsaslandırması.

Tövsiyyə olunur ki, bu sənədlərlə yanaşı illik maliyyə hesabatının təqdim olunmasına dair bildiriş də ərizəyə əlavə edilsin.
Qrantın qeydiyyatı üçün standart ərizə forması mövcuddur (Əlavə I).

Sənədlər xaricdə verilirsə, onlar leqallaşdırılmalı və ya apostil edilməli həmçinin Azərbaycan dilinə tərcümə olunmalıdır.

Qeyd etmək lazımdır ki, qrantı qeydiyyatdan keçirmək öhdəliyi həmçinin qrantın məqsədi, məbləği və ya müddəti haqqında məlumatda dəyişiklik və ya subqrant olarsa və ya qranta dəyişiklik edildiyi hallara da tətbiq olunur.

*Qrantın qeydə alınması üçün son tarix*
Qrantın qeydə alınması üçün ərizə və müvafiq sənədlər müqavilə (qərar) imzalandığı gündən 30 (otuz) gün ərzində ƏN-ə təqdim edilməlidir.

Sənədlər daxil olduğu vaxtdan növbəti iş günündən gec olmayaraq, ƏN onların tamlığını müəyyən edir. Əgər sənədlər tamdırsa, ƏN qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyin əldə edilməsi üçün qrant müqaviləsini (qərarını) və qrantın maliyyə-iqtisadi əsaslandırmasını Maliyyə Nazirliyinə (MN) göndərir. Sənədlər tam təqdim olunmadıqda, müraciət etmiş şəxsə geri qaytarılır və çatışmazlıqların aradan qaldırılması üçün ərizəçiyə əlavə olaraq 10 gün müddət təyin edilir. Əgər düzəlişlər ölkə xaricində fəaliyyət (xaricdə imzanın notarial təsdiq edilməsi, Apostil alınması, sənədlərin düzəliş edilmiş əsllərinin Azərbaycana göndərilməsi və onların azərbaycan dilinə tərcümə edilməsi) tələb edirsə, ərizəçi ƏN-nə müraciət etmək üçün çevik olmalıdır.

Qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyi barədə rəy üçün heç bir meyar yoxdur. Təcrübədə bu yalnız MN-in razılıq məktubudur. Əgər MN-in qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair ƏN-ə göndərdiyi rəy mənfidirsə (məsələn, qrantın məqsədi və onun maliyyə-iqtisadi əsaslandırması qeyri-dəqiq göstərildikdə[10]), ərizəçiyə bu barədə 3 iş günü ərzində məlumat verilməlidir.

Ümumiyyətlə, ƏN qrantla bağlı heç bir problem aşkar etməzsə, ƏN təqdim olunduğu gündən 15 gün ərzində qrant müqaviləsini (qərarı) qeydə almalı və qeydiyyata dair bildiriş verməlidir. Əlavə araşdırma zərurəti yarandıqda və ya hər hansı sənəd çatışmadıqda (ƏN-nin mülahizəsinə əsasən) qrantın qeydiyyat müddəti daha 15 günədək uzadıla bilər. Qeyd edək ki, qanunvericilik müraciət paketinin tam və qənaətbəxş olub-olmaması barədə ƏN-nin mülahizələrinə geniş imkan verir. Qrant qeydiyyatının 15 gündən 54 günə qədər (ƏN müddəti 15 gün uzada, ərizəçidən çatışmayan sənədləri tamamlamağı tələb edə və 10 gün vaxt verə bilər, MN rəyini ən gec 14 gün ərzində verə bilər) uzanacağı gözlənilir. Bu müddətin sonunda ƏN qrantı qeydiyyata almaq və ya bundan imtina etmək barədə qərar verməlidir.

*Qrantın qeydiyyatı üçün ərizənin təqdim edilməsi*

[10] Donorun qeydiyyatına dair Qaydalar, 2015, Maddə 3.4.

Qrantın qeydiyyatı üçün ərizə qrant alan QKT və ya donor tərəfindən elektron qaydada və ya poçt vasitəsi ilə göndərilə bilər. Adətən ərizəni qrant alan QKT-lər təqdim edir.
QKT qrantın qeydiyyatı üçün ərizəni Ədliyyə Nazirliyinin müvafiq binasında şəxsən də təqdim edə bilər. Bunun üçün zərfi nazirliyin aşağıda göstərilən ünvanda yerləşən idarəsində şəffaf qutuya atmaq lazımdır.
Qrantın qeydiyyatı üçün ərizə poçt vasitəsi ilə də göndərilə bilər. Belə hallarda, QKT-lər göndərilmə tarixi və alan haqqında məlumatı əks etdirən poçt qəbzini saxlamalıdır. Sənədləri sifarişli poçtla da göndərmək mümkündür.

2014-cü ilin may ayından etibarən Ədliyyə Nazirliyi QKT-lərə "fərdi elektron kabinet" sistemindən istifadə etmək seçimi verib. Bu sistem vasitəsi ilə QKT-lər öz qrant müqavilələrini elektron şəkildə nazirliyə göndərə bilərlər. Sistemə daxil olmaq üçün QKT Ədliyyə Nazirliyinin aşağıda qeyd olunan ünvanına yazılı müraciət edərək istifadəçi adı və parol əldə etməlidir.

Qrantların qeydiyyatını aparan idarənin ünvanı

Ədliyyə Nazirliyinin Qeydiyyat və Notariat baş idarəsi
Ünvan: Azərbaycan Respublikası, Bakı şəhəri AZ1007, Azadlıq prospekti 72
Telefon: (99412) 404-42-81
Faks: (99412) 404-42-99
E-mail: notvva@bakinter.net
http://www.justice.gov.az/notariat.php?page=contacts

*İmtinanın əasları*
Qrantın qeydiyyyatı üçün müraciətin rədd edilməsinin əsasları aşağıdakılar:

a) Natamam ərizə və qanunla tələb olunan sənədlərin çatışmaması;
b) Qrant üzrə həyata keçirilməsi nəzərdə tutulan tədbirlər Azərbaycan Respublikasının qanunlarını və ya resipiyentin nizamnaməsini pozursa, o cümlədən müqavilənin (qərarın) şərtləri qrantın təyinatına uyğun deyilsə;
c) Oxşar sahələr Azərbaycan Respublikası tərəfindən maliyyələşdirilirsə;
d) Xarici donorun Azərbaycanda qeydiyyatdan keçmiş ofisi yoxdursa;
e) Müqaviləni (qərarı) imzalamış şəxs müvafiq səlahiyyətə malik deyilsə;
f) Layihənin həyata keçirildiyi dövrdə qrant hesabına əldə edilən dəyərlərin satılması üçün donorun yazılı razılığı yoxdursa[11];
g) Müqavilənin (qərarın) şərtləri qeyri-müəyyən, planlaşdırılan fəaliyyət qeyri-dəqiq olarsa;
h) MN-ə qrant alan QHT-nin illik maliyyə hesabatları təqdim edilmədikdə;
i) MN-in qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyi mənfidirsə (məsələn, MN-in mülahizəsinə əsasən qrantın verilməsi məqsədi və onun maliyyə-iqtisadi əsaslandırması aydın göstərilmədikdə);
j) ƏN tərəfindən müəyyən edilən nöqsanlar vaxtında aradan qaldırılmadıqda.

*Qrantın qeydiyyata alınmasına dair qərar*
Ədliyyə Nazirliyi qrant müqaviləsini (qərarı) qeydiyyata aldıqda, qrantın qeydiyyatına dair bildiriş verməlidir. Qrant alanlar bu bildirişi Ədliyyə Nazirliyi və ya Vergilər Nazirliyi tərəfindən yoxlama aparıldıqda və ya qrant məbləğindən istifadə edilməsi üçün bank tərəfindən tələb edildikdə qrantın qeydiyyatının sübutu kimi özlərində saxlamalıdırlar. Qrant

[11] Qrantın qeydiyyatına dair Qaydalar, Maddə 3.1.8, 2015.

üzrə edilən pul köçürmələrinin sayından asılı olmayaraq, bir qrantın qeydiyyatı üçün yalnız bir bildiriş verilir.
Əgər ƏN qrantın qeydiyyatından imtina edərsə və ya müddətindən artıq gecikdirərsə, ərizəçi məhkəməyə müraciət edə bilər. Əgər imtina MN-nin verdiyi mənfi rəydən qaynaqlanarsa, ərizəçi məhkəmədə MN-in rəyindən də şikayət edə bilər.

*Fərdi şəxslər tərəfindən alınmış qrantların qeydiyyatı*
Qrantların qeydiyyatına dair 2015-ci il tarixli Qaydalar fərdi şəxslərə də şamil edilir. Öz şəxsi bank hesablarına qrant qəbul edən fərdi şəxslər QKT-lərlə eyni qaydada ƏN-də qrantları qeydiyyatdan keçirməlidirlər.

*Maliyyə hesabatında qrant haqqında məlumatın verilməsi*
QKT-lər haqqında Qanuna əsasən[12] QKT-lər illik maliyyə hesabatını hər il aprel ayının 1-dən gec olmayaraq ƏN-ə təqdim etməlidir.[13] QKT-lər maliyyə hesabatına qrantla bağlı aşağıdakı məlumatları daxil etməlidir:

- donorun adı;
- manatla və orijinal valyuta ilə qrantın məbləği;
- qrantın təyinatı / məqsədi;
- qrantın müddəti;
- müəyyən maliyyə ilində ümumi məbləğin köçürülmüş hissəsi.[14]

Eyni zamanda, QKT üçüncü şəxslərə verdiyi qrant haqqında aşağıdakı məlumatları daxil etməlidir:

- resipiyentin adı;
- manatla və orijinal valyuta ilə qrantın məbləği;
- qrant təyinatı / məqsədi;
- qrantın müddəti;
- müəyyən maliyyə ilində köçürülən ümumi məbləğin ödənişi.

*Qrantlara tətbiq olunan cərimələr*

Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsinin (bundan sonra – İnzibati Xətalar Məcəlləsi) 432.1-ci maddəsinə əsasən qrantın qeydə alınmamasına görə maliyyə sanksiyası nəzərdə tutulur. Bu cərimə QKT rəhbərləri üçün 1500 manatdan 2500 manatadək və QKT üçün 5000 manatdan 7000 manatadək təşkil edir.

Qanun qrant müqaviləsi (qərarı) olmadan Azərbaycan Respublikasında fəaliyyət göstərən qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada yardım qəbul etməsinə görə sanksiya nəzərdə tutur. Bu pozuntuya görə alınan yardım (vəsait və əşyalar) müsadirə olunmaqla vəzifəli şəxslər 2500 manatdan 5000 manatadək miqdarda, hüquqi şəxslərin isə 8000 manatdan 15000 manatadək miqdarda cərimə olunur.[15]

---

[12] Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında Qanun.
[13] QKT haqqında Qanun, Maddə 29.4
[14] İllik maliyyə hesabatı formasını buradan əldə edə bilərsiniz: www.qht-hesabat.maliyye.gov.az
[15] İnzibati Xətalar Məcəlləsi, Maddə 432.2

Yerli və xarici QKT-lər yaxud banklar tərəfindən qeydiyyata alınmamış qrant müqavilələri (qərarları) üzrə bank əməliyyatlarının aparılmasına görə vəzifəli şəxslər 2500-5000 manat, hüquqi şəxslər 5000-8000 manat miqdarında cərimə edilir.[16]

## B. İanələr[17]

*İanə nədir?*

"İanə" ifadəsi QKT haqqında Qanuna 2013-cü ilin fevral ayında daxil edilib.[18] Burada "İanə qeyri-hökumət təşkilatına [...] bu qanuna uyğun olaraq və hər hansı bir məqsədə nail olmaq məqsədi güdməyən pul şəklində və (və ya) başqa maddi formada [...] edilən yardım" olaraq izah olunur.

*İanə və qrant arasında əsas fərqlər*

1. Məqsədi: ianə hər hansı məqsəd üçün verilə bilməz. Donor tərəfindən ianəyə heç bir şərt əlavə edilə bilməz. İanə ilə bağlı fəaliyyətlər QKT-nin iradəsi ilə onun öz nizamnaməsinə və qanunvericiliyə uyğun olaraq həyata keçirilə bilər. İanədən fərqli olaraq, qrant yalnız konkret məqsəd (və ya məqsədlər) üçün verilir.
2. Resipiyentlər: yalnız qeydiyyatdan keçmiş QKT-lər və Azərbaycanda qeydiyyatdan keçmiş ofisi olan XQKT-lər ianə qəbul edə bilər, fərdi şəxslər də həmçinin ianə qəbul edə bilər.
3. İanə verən: Azərbaycan Respublikasının vətəndaşı, yaxud Azərbaycan Respublikasında dövlət qeydiyyatına alınmış hüquqi şəxs, Azərbaycanda qeydiyyatdan keçmiş ofisi olan XQKT-lər ianə verə bilər. Azərbaycanda qeydiyyatdan keçmiş ofisi olan xarici XQKT-lər Azərbaycanda əlavə olaraq donor kimi qeydiyyatdan keçmədən ianə verə bilər. Müqayisə üçün, XQKT-lərin qrant verə bilməsi üçün həm Azərbaycanda qeydiyyatdan keçmiş ofisi olmalıdır həm də Azərbaycanda donor kimi qeydiyyatdan keçməlidir.
4. Qrant və ianə şəklində verilən aktivlər: ianələr nağd şəkildə verilə bilməz, lakin istisna olaraq xeyriyyə təşkilatına 200 ($115) manatadək ianələr nağd şəkildə verilə bilər.[19] İanələr bank köçürməsi vasitəsilə edilməlidir. Qrantlar (ən azı, nəzəriyyədə belədir) həm bank yolu ilə həm də nağd şəkildə verilə bilər.

*Nələr və necə İanə verilə bilər*

İanə maliyyə vəsaiti və ya maddi formada (məsələn əşyalar, daşınmaz əmlak, əqli mülkiyyət, və s) ola bilər. İstənilən məbləğdə ianə ƏN-də qeydiyyata alınmalıdır. QKT qəbul etdiyi və ya ona vəd edilən ianə müqabilində donora heç bir imtiyaz verə və ya vəd edə bilməz.

Pul şəklində ianələr bank vasitəsilə köçürülməlidir, istisna olaraq, ianənin resipiyentin nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik olduqda 200 ($115) manatadək ianələr nağd şəkildə qəbul edilə bilər. Maddi formada olan ianələr üçün qanunvericilikdə heç bir xüsusi qayda nəzərdə tutulmasada, ianənin qeydiyyatına dair ərizə forması[20] ianə əmlak formasında olduqda onun tərkibinin göstərilməsini tələb edir.

Azərbaycan vətəndaşı, Azərbaycanda dövlət qeydiyyatına alınmış hüquqi şəxs, Azərbaycanda qeydiyyatdan keçmiş ofisi olan xarici XQKT-lər hansısa əşyanın müəyyən müddətdən sonra

---

[16] İnzibati Xətalar Məcəlləsi, Maddə 432.4

[17] Mənbə: Azərbaycanda İanənin qeydiyyatına dair bələdçi, P.Bayramova, M.Quluzadə, Bakı, 2014.

[18] QKT haqqında Qanun, Maddə 24-1, 15fevral 2013-cü ildə edilmiş düzəliş.

[19] Azərbaycan qanunvericiliyi xeyriyyə təşkilatlarının qeydiyyata alınması üçün qaydalar müəyyən etmir.

[20] «Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatların təqdim edilməsi Qaydası»na 1 nömrəli əlavə, 21 oktyabr 2015.

QKT-yə ianə verilməsinə dair vəd verə bilər, bu cür vəd yazılı şəkildə olub notarial təsdiq olunmalıdır.

*İanənin qeydiyyatı*
Qrantda olduğu kimi, QKT-lər İanəni qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatların təqdim edilməsi Qaydasına (bundan sonra İanəyə dair Qaydalar) uyğun olaraq ƏN-də qeydiyyata qoymalıdır.[21]

QKT-lər ianələri aldıqları vaxtdan 15 gün ərzində ƏN-də qeydiyyata qoymalıdır. Qeydiyyata alınmamış ianə üzrə istənilən əməliyyat qadağandır.

İanənin qeydiyyatı üçün QKT aşağıdakı sənədləri təqdim etməlidir:
- İanəyə dair qaydalarda göstərilən formaya uyğun Ərizə;
- İanənin məbləğini göstərən bank çıxarışı (200 manatadək olan nağd ianələrə şamil edilmir).

Gördüyümüz kimi, ianənin qeydiyyatı üçün lazım olan sənədlərin siyahısı qrantın qeydiyyatı üçün olandan qısadır.

ƏN ianənin qeydiyyatı üçün müraciəti rədd edə bilər:
- ərizəni imzalayan şəxsin belə səlahiyyətləri olmadıqda;
- QKT-nin hüquqi şəxslərin dövlət reyestrindən yenilənmiş çıxarışı olmadıqda;[22]
- ianə Azərbaycan qanunvericiliyində nəzərdə tutulmayan donor tərəfindən verildikdə;
- ianə ilə nəzərdə tutulmuş fəaliyyət qanunvericiliyə və ya təşkilatın nizamnaməsinə zidd olduqda;
- QKT Azərbaycanın anti-korrupsiya, çirkli pulların yuyulması və anti-terror qanunlarına əməl etmədikdə;
- QKT qanunu pozaraq nağd ianə qəbul etdikdə (200 manatdan çox);
- donorun ƏN ilə müqaviləsinin etibarlılıq müddəti bitdikdə. [23]

*İanəni nağd şəkildə qəbul edilməsi*
Nəzəriyyədə, nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik olan təşkilatlar 200 (iki yüz) manata qədər nağd ianə qəbul edə bilərlər.[24] Lakin Azərbaycan qanunvericiliyi xeyriyyə təşkilatlarının qeydiyyat qaydalarını və ya QKT-nin xeyriyyə təşkilatı kimi tanınması qaydalarını müəyyən etmir. QKT bu cür ianənin alınmasına haqq qazandırmağa çalışmaqla risk edir.

*Digər formada ianənin qəbul edilməsi*
Qanunda ianə maddi (qeyri-pul) formada edildikdə onun necə sənədləşdirilməsinə dair hər hansı qayda əks olunmayıb. Eyni zamanda İanələrə dair Qaydalarda aydın şəkildə bildirilir ki, ianələr bank köçürməsi yolu ilə edilməldir ki, bunun maddi formada edilən ianələrə tətbiqi mümkün deyil. Qeyd edildiyi kimi, ianənin qeydiyyatına dair ərizə forması ianə əmlak formasında olduqda onun tərkibinin göstərilməsini tələb edir. Əgər müəyyən əmlakın verilməsi xüsusi sənədləşmə tələb edirsə (məsələn, daşınmaz əmlak və ya avtomobildə olduğu kimi), belə halda qanunla müəyyən edilmiş sənədləşmə lazımdır. Yaxşı olar ki, maddi

[21] Azərbaycan hökumətinin 13 noyabr 2015-ci il tarixli 336 saylı Qərarı.
[22]ƏN bunu hüquqi şəxslərin dövlət reyestrindəki məlumatlar əsasında yoxlayır və QKT-nin ianənin qeydiyyatı üçün sənədlərin bir hissəsi kimi hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı təqdim etməsinə gərək yoxdur.
[23]ƏN bunu hüquqi şəxslərin dövlət reyestrindəki məlumatlar əsasında yoxlayır və QKT-nin ianənin qeydiyyatı üçün sənədlərin bir hissəsi kimi hüquqi şəxslərin dövlət reyestrindən çıxarışı təqdim etməsinə gərək yoxdur.
[24]QKT haqqında Qanun, Maddə 24-1.4.

formada edilən ianələrdə sənədləşmənin necə aparılması haqqında ƏN ilə məsləhətləşmə aparılsın.

*İanəyə dair məlumatın maliyyə hesabatına daxil edilməsi*

QKT haqqında Qanuna əsasən, QKT hər il aprel ayının 1-dən gec olmayaraq illik maliyyə hesabatını Azərbaycan Respublikasının Maliyyə Nazirliyinə təqdim edir.[25] QKT qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş hüquqi və fiziki şəxslər barədə məlumatları illik maliyyə hesabatına daxil etməlidir.[26] Donor hüquqi şəxs olduqda onun haqqında aşağıdakı məlumatlar maliyyə hesabatına daxil edilməlidir:

- Hüquqi şəxsin adı;
- Hüquqi şəxsin VÖEN-i;
- Hüquqi şəxsin hüquqi ünvanı;
- Hüquqi şəxsin bank rekvizitləri;
- Hüquqi şəxsin əlaqə telefonu.[27]

İanəni verən fiziki şəxs olduqda onun haqqında aşağıdakı məlumatlar maliyyə hesabatına daxil edilməlidir:

- Fiziki şəxsin adı, soyadı, atasının adı;
- Fiziki şəxsin şəxsiyyətini təsdiq edən sənədin digər göstəriciləri (şəxsiyyəti təsdiq edən sənədin seriya nömrəsi, şəxsiyyəti təsdiq edən sənədi verən orqanın adı, ünvanı və verilmə tarixi).

*Anonim ianələr*

Anonim ianələrə Azərbaycanda icazə verilmir, çünki donor haqqında məlumat MN-ə təqdim edilən illik maliyyə hesabatlarına daxil edilən vacib məlumatlardan biridir.

*"Qəpik qutuları"*

"Qəpik qutuları" dünya praktikasında ianə toplanılmasının ən geniş yayılmış üsullarındandır. Azərbaycanda "qəpik qutuları" vasitəsi ilə ianə toplanılması şərtlərini əks etdirən hər hansı qayda yoxdur. Texniki olaraq, QKT-larına qəpik qutuları vasitəsilə ianə qəbul etməyə icazə verilmir. (*Anonim ianələr* hissəsinə baxın) Əgər bunu təcrübə etməyə maraqlı olan və risk etmək istəyən varsa, hazırlı vəsaitin Xarici ölkələrdə innovativ gəlir mənbələrinin xülasəsi hissəsindəki məlumatlara baxa və ƏN ilə məsləhətləşə bilər.

*İanələrə görə cərimələr*

İanələrlə bağlı qanunvericilikdə bir sıra cərimələr nəzərdə tutulur:

- ianələr barədə məlumatın maliyyə hesabatına daxil edilməməsinə görə vəzifəli şəxslər 1500 manatdan 3000 manatadək, hüquqi şəxslər isə 5000 manatdan 8000 manatadək cərimə oluna bilər.[28]
- 200 manatdan çox ianənin QKT-yə nağd şəkildə verilməsinə görə (fərdi şəxslər 250 manatdan 300 manatadək, vəzifəli şəxslər 750 manatdan 1500 manatadək, hüquqi şəxslər 3500 manatdan 7000 manatadək [29]).
- 200 manatdan çox ianəni nağd şəkildə qəbul edən QKT üçün də cərimə mövcuddur (vəzifəli şəxslər 1000 manatdan 2000 manatadək, hüquqi şəxslər 7000 manatdan 10000 manatadək).

[25] QKT haqqında Qanun, Maddə 29.4.
[26] QHT haqqında Qanun, Maddə 24-1.5.
[27] İllik maliyyə hesabatı formasını buradan əldə edə bilərsiniz:www.qht-hesabat.maliyye.gov.az
[28] İnzibati Xətalar Məcəlləsi, Maddə 465.
[29] İnzibati Xətalar Məcəlləsi, Maddə 466.

Bu vəsaitin nəşr olunduğu vaxt qanunvericilikdə qeydiyyata alınmamış ianədən istifadəyə və bankların qeydiyyata alınmamış ianələri icra etməsinə görə cərimələr nəzərdə tutulmamışdır.

**A. Qrantlar**

Dövlət tərəfindən verilən qrantlar Qrant haqqında Qanunla tənzimlənir və özəl mənbələrdən verilən qrantlarla bağlı əvvəlki bölmədə təsvir olunan anlayış və hüquqi çərçivəyə daxildir. Bu bölmədə biz yalnız dövlət tərəfindən verilən qrantların tənzimlənməsinin özəl mənbələrdən verilən qrantlardan fərqli xüsusiyyətlərindən danışırıq.

Müxtəlif nazirliklər və digər dövlət orqanları Azərbaycanda QKT-lərə və fərdi şəxslərə qrant verir. Qrant haqqında Qanunun 2-ci maddəsinə əsasən, Azərbaycan hökuməti adından verilən qrantlar müsabiqə əsasında verilir.

Hazırda Azərbaycanda qrant verən dövlət orqanları aşağıdakılardır:

- QHT Şurası;
- Gənclər Fondu;
- Azərbaycan Respublikası Gənclər, İdman və Mədəniyyət Nazirliyi;
- Azərbaycan Respublikası Əmək və Əhalinin Sosial Müdafiəsi Nazirliyi (ƏƏSMN);
- Azərbaycan Respublikasının Baş Prokuroru yanında Korrupsiyaya qarşı Mübarizə Baş İdarəsi.

Bu orqanların hər birinin qrant müsabiqəsi üçün öz qaydaları və tələbləri var.

Məsələn, QHT Şurası QKT-lər üçün ildə bir neçə dəfə qrant müsabiqəsi keçirir və bu barədə öz rəsmi internet səhifəsində elan yerləşdirir. [30] QHT Şurasının qrant müsabiqələri bir qayda olaraq layihə təkliflərinin təqdim edilmə vaxtından bir ay öncə elan olunur və müraciətlər www.e-qht.az internet portalı vasitəsilə elektron qaydada edilir.

*Ərizəçiyə dair tələblər*

Dövlət qrant müsabiqəsinin ərizəçiyə dair tələbləri bir orqandan digərinə dəyişə bilər. QHT Şurasından qrant almaq üçün müraciət edən QKT:

- hüquqi şəxs kimi qeydiyyatdan keçmiş olmalı;
- bank hesabı olmalı;
- hüquqi şəxslərin dövlət reyestrindən müvafiq çıxarışı olmalı;[31]
- keçən il üçün maliyyə hesabatını təqdim etməli;
- QHT Şurasına təqdim etdiyi layihə üzrə təcrübəsi olmalıdır.[32]

*Müraciət*

---

[30] Qrant müsabiqəsinə dair elan eləcə də müsabiqə şərtləri ilə www.cssn.gov.az və http://www.e-qht.az/news/one/66 səhifələrində tanış ola bilərsiniz.

[31] Dövlət reyestrindən çıxarış sədr, İdarə Heyəti üzvlüyü, hüquqi ünvan və s. ilə bağlı dəyişiklik olduğu halda əldə edilməlidir. Bəzi QKT-lər üçün bu hər il, bəziləri üçün 2 ildən bir və ya 3 ildən bir yenilənməlidir. Bu sənəd əsasən QKT dövlət qrantları üçün müraciət edən zaman tələb olunur. Bunun səbəbi budur ki, çıxarışın etibarlılıq müddəti başa çatıbsa, təşkilatın sədri (qanuni nümayəndəsi) təşkilat adından daha heç bir müqavilə imzalaya bilməz.

[32] Adətən QKTlərin qrant təklifi verərkən öz əvvəlki təcrübələrindən bəhs etməsi kifayət edir. Lakin müraciətlərin qiymətləndirilməsində müsahibə zamanı sənədlərlə əsaslandırılması da tələb oluna bilər.

QHT Şurasının qrant müsabiqəsində iştirak etmək üçün müraciətə aşağıdakı sənədlər daxil edilməlidir:

- layihə təklifi;
- icra planı;
- büdcə;
- dövlət reyestrindən çıxarış.

*Digər məhdudiyyətlər*

- QHT Şurasına maliyyə dəstəyi üçün təqdim edilən layihələrin müddəti 12 aydan çox olmamalı və dövlət qeydiyyatından keçdikdən sonra bir ildən az təcrübəsi olan QKT-lər üçün məbləğ 3000 manatdan, təcrübəsi daha çox olan QKT-lər üçünsə, 12000 manatdan çox olmamalıdır.
- Daha əvvəl QHT Şurasının qara siyahısına düşən müraciətçilər[33] iki il qrant müsabiqəsində iştirak edə bilməz.
- Qrant daşınmaz əmlakın alınması, təhsil təqaüdü, siyasi və dini fəaliyyət, fiziki şəxslərə maddi yardım və Azərbaycan qanunvericiliyinin pozulmasına görə cərimələrin ödənilməsi üçün istifadə edilə bilməz.
- QKT daha əvvəl QHT Şurası tərəfindən maliyyələşdirilən layihəsini başa çatdırmayanadək yeni qrant müsabiqəsində iştirak edə bilməz.

*Qiymətləndirmə*

Dövlət tərəfindən verilən qrant üçün layihə təkliflərinin qiymətləndirmə proseduru bir orqandan digərinə dəyişə bilər. Məsələn, QHT Şurası qrant müraciətlərinin aşağıdakı üç mərhələli qiymətləndirmə prosesindən istifadə edir:

1. Əsasən layihə təklifinin müsabiqə qaydalarına uyğunluğunu yoxlayan QHT Şurasının Katibliyi tərəfindən layihə təkliflərinə ilkin baxış.
2. Müqavilə əsasında ekspertlər tərəfindən layihə təklifinin qiymətləndirilməsi (ekspertizası). Ekspertlər layihələri QHT Şurası tərəfindən təsdiq edilmiş qiymətləndirmə vərəqinə uyğun ballıq sistem üzrə qiymətləndirir. QHT Şurası tərəfindən kodlaşdırılmış hər bir layihə (anonim olması üçün adları silinərək əvəzinə nömrə / kod yazılır) 3 müstəqil ekspert tərəfindən qiymətləndirilir.
3. Layihə təklifləri ilə bağlı QHT Şurasının son qərarı. Şuranın 11 üzvü hər bir layihə təklifini ayrıca müzakirə edir və ekspertlərin fikirlərinə baxaraq müvafiq qərar qəbul edir. Sonra Katiblik öz internet səhifəsində qalib təşkilatlar haqqında məlumat yerləşdirir və poçt vasitəsilə onlara fərdi məktub göndərir.

Layihə təklifləri uğursuz olan QKT-lər qərar qəbul ediləndən on gün ərzində QHT Şurasına apelyasiya şikayəti verə bilər. Müraciət etmiş QKT-lər onların layihə təkliflərinə verilmiş ekspert rəyləri ilə tanış olmaları üçün QHT Şurasına dəvət olunur. Təcrübədə çox az QKT bu müraciət mexanizmindən istifadə edir, çünki: (I) QKT-lərin fikrincə, layihə təkliflərinin qiymətləndirilməsi olduqca qərəzsiz aparılır və QKT-lər QHT Şurasının son qərarına etibar edir; (II) müraciət edən QKT-nin qalib gəlmək şansı çox azdır və gələcəkdə qrant üçün müraciət etməyi planlaşdıran QKT-lər QHT Şurası ilə münasibətlərinə zərər vurmaq istəmirlər.[34]

---

[33] QKT aldığı qrantla bağlı QHT Şurasına hesabat təqdim etmirsə və ya qrantın icrasında ciddi nöqsanlar varsa, onlar "qara siyahı"ya daxil edilirlər.

[34] "Azərbaycan Respublikasında Qeyri-Hökumət Təşkilatları üçün hüquqi Çərçivənin Qiymətləndirilməsi" 2014 (USAİD-in Chemonics International tərəfindən həyata keçirilən İnkişaf naminə Yerli Bacarıqların Artırılması proqramı üçün ICNL-in hazırladığı).

*Dövlət tərəfindən verilən qrantların qeydiyyatı*
Əvvəlki fəsildə təsvir edilən qrant müqavilələrinin qeydiyyatı qaydaları aşağıdakı fərqlər ilə dövlət orqanları tərəfindən verilən qrantlara da tətbiq olunur:

- dövlət büdcəsi hesabına verilmiş qrant barədə məlumat donor tərəfindən xüsusi formatda ƏN-nə qrant müqaviləsinin (qərarının) imzalandığı vaxtdan 7 (yeddi) gündən gec olmayaraq təqdim olunur.[35]
- QKT-yə qrant vermək istəyən dövlət orqanı mövzuların qiymətləndirilməsi və QKT-ə qrant verilməsi haqqında QHT-lərə Dəstək Şurasının rəyini təmin etməlidir.[36]

Dövlət büdcəsindən verilmiş qrant haqqında məlumatın qeydiyyat üçün donor tərəfindən təqdim edilməməsi resipiyent QKT-ni qeydiyyat üçün qrant müqaviləsini (qərarı) təqdim etmək öhdəliyindən azad etmir.[37] Ancaq bizim belə hallar barədə məlumatımız yoxdur.

## B. SUBSİDİYA

Subsidiyalar Azərbaycanda QKT-lərin qrant qədər məşhur olmayan dövlət maliyyələşdirilməsi mexanizmidir. Təcrübədə yalnız bir neçə QKT dövlət büdcəsindən birbaşa subsidiyalar ala bilir (məsələn, Bəstəkarlar İttifaqı, Yazıçılar İttifaqı, Rəssamlar İttifaqı və s).

Subsidiyanın tərifinə yalnız Dövlət Büdcəsi haqqında Azərbaycan Respublikasının Qanununda rast gəlirik *"dövlət büdcəsindən Naxçıvan Muxtar Respublikasının büdcəsinə, yerli büdcələrə və təşkilatlara əvəzsiz verilən pul"* [38].

Adətən çox az sayda QKT subsidiya ala bilər. Bunlar müsabiqəsiz, dövlət büdcəsi haqqında qanunla müəyyən olunur. Əksər QKT-lərə uyğun olmadığı üçün biz subsidiyanın tənzimlənməsinin təfərrüatlarından danışmırıq.

## C. DÖVLƏTDƏN MALİYYƏLƏŞMƏNİN DİGƏR FORMALARI

*Mal və xidmətlərin dövlət satınalması*
2001-ci il Dövlət satınalmaları haqqında Qanunu[39] QKT-lərə mal və xidmətlərin satın alınması üçün tenderlərdə iştirak etməyə imkan verir. Lakin Azərbaycan qanunvericiliyinin dövlət satınalmasında iştirak etmək üçün icbari maliyyə təminatı tələb etməsi QKT-lərin dövlətlə müqavilə təklifini mümkünsüz edir. Bir qayda olaraq Dövlət satınalmaları haqqında Qanunda hüquqi şəxsin və ya fiziki şəxsin satınalmalar üzrə tender təkliflərində iştirak etməsi üçün həm tender təklifinin, həm də satınalma müqaviləsinin yerinə yetirilməsinin təminatını ödəmək tələb olunur. Təklif irəli sürən tərəf tender xərclərini ödəmək üçün satınalmanın ümumi məbləğinin 0.5 faizə qədərini və ya xərclərin 1.5 faizə qədərini dövlətə təqdim etməlidir. Qanunda, həmçinin tender təklifinin təminatı satınalmanın ümumi

---

[35] Qrantın qeydiyyatı haqqında Qaydalara Əlavə 5.
Bu məlumata: donorun adı, mənsub olduğu ölkə, resipiyentin adı, mənsub olduğu ölkə, qrantın təyinatı, məqsədi və nömrəsi, qrantın başlama və bitmə vaxtı, qrant məbləği və valyuta, qrantın həyata keçiriləcəyi coğrafi ərazi, resipiyentin aldığı maddi yardımı, onun həyata keçirilməsi ilə məşğul olan təşkilatlar, tərəflərin imzaladığı tarix, donor qismində imzalayan şəxsin adı və vəzifəsi, resipiyent qismində imzalayan şəxsin şəxsiyyətini təsdiq edən sənədin məlumatları, qrant hüquqi nümayəndə olmayan şəxs tərəfindən imzalanarsa, etibarnamədəki məlumatlar, QHT Şurası tərəfindən qrantın təyinatı və QKT-yə verilməsinin qiymətləndirilməsi, donor, resipiyent və bankın email-ləri və digər müvafiq məlumatlar daxildir.
[36] Azərbaycan Respublikası Prezidentinin 2015-ci il 21 oktyabr tarixli 652 nömrəli Fərmanı ilə təsdiq edilmiş "Dövlət orqanları tərəfindən QHT-lərə qrant verilməsinin QHT Şurası ilə razılaşdırılması Qaydası".
[37] Qrantın qeydiyyatına dair Qaydalar, 2015, Maddə 1.6.
[38] Azərbaycan Respublikasının "Büdcə sistemi haqqında" Qanunu 358, 2 iyul, 2002.
[39] Dövlət Satınalmaları haqqında Azərbaycan Respublikasının Qanunu , #245-IIQ, 2001.

qiymətinin 1-5 faizinədək məbləğdə müəyyən edilir. Satınalma üzrə tender qalibinin müqavilə üzrə öhdəliklərinin icrasına təminat vermək üçün depozit qoyulmasına dair əlavə tələb də var. Bank zəmanəti, akkreditiv, qiymətli kağızlar, nağd pul vəsaiti, depozitlər və digər maliyyə aktivləri təminat kimi istifadə oluna bilər. Təcrübədə hətta böyük qeyri-kommersiya təşkilatları hazırkı qanunla tələb olunan minimum tender təklifi təminatını irəli sürə bilmirlər.

*Dövlət sifarşli (müqaviləli) sosial xidmət*

Dövlət üçün sosial xidmətlərin həyata keçirilməsi QKT-lərin yerli maliyələşməsinin digər mənbəyi ola bilər. Sosial xidmət haqqında Qanun[40] dövlət orqanlarına QKT-lərdən sosial xidmət almaq üçün dövlət büdcəsinin vəsaitlərindən istifadə etməyə imkan verir. 30 dekabr 2012-ci ildə Azərbaycan Respublikası Nazirlər Kabineti (Azərbaycan hökuməti) iki qərar- "Dövlət sosial xidmət müəssisələrində və evlərdə qismən ödənişli və tam ödənişli şərtlərlə sosial xidmətin göstərilməsi Qaydası " və "Sosial xidmət sahəsində dövlət sifarişlərinin bələdiyyələrə, fiziki və hüquqi şəxslərə, o cümlədən qeyri-hökumət təşkilatlarına verilməsi Qaydası" (bundan sonra Dövlət Sifarişli Sosial xidmətlər haqqında Qaydalar) qəbul etdi. Dövlət Sifarişli Sosial xidmətlər haqqında Qaydalar "sosial xidmət sahəsində sosial sifarişlər üzrə müqavilə nümunəsi" ilə müşayiət olunur. Dövlət Sifarişli Sosial xidmət haqqında Qaydalar sosial sifarişlər üçün büdcə, tender komissiyaları, belə komissiyalarında üzvlük, tenderlərdə QHT-lərin iştirakı və dövlət orqanlarının və QKT-lərin məsuliyyəti və sosial sifariş əsasında görülən işə nəzarət məsələlərini ehtiva edir.

29 noyabr 2012-ci ildə Prezident Sosial xidmət haqqında Qanunun icrasını ƏƏSMN, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi və yerli idarəetmə orqanlarına həvalə edilməsi haqqında yeni fərman verdi.[41]

Dövlət Sifarişli Sosial xidmət haqqında Qaydalara əsasən, icraçılara sosial sifarişlər ƏƏSMN, Səhiyyə Nazirliyi, Təhsil Nazirliyi və yerli idarəetmə orqanları tərəfindən yaradılacaq "tender komissiyası" tərəfindən müsabiqə əsasında veriləcək. Tender komissiyaları sosial xidmətləri alan müvafiq dövlət orqanlarının rəhbərləri tərəfindən təsdiq edilmiş qaydalara uyğun olaraq yaradılıb fəaliyyət göstərəcək. Qanunvericilik belə qaydalarla ümumi rəhbərliyi həyata keçirir. Xüsusilə, tender komissiyasına müvafiq dövlət orqanlarından mütəxəssislər daxildir. Mərkəzi icra hakimiyyəti orqanları, bələdiyyələr və QKT-lərin nümayəndələri onları maraqlandıran sualların müzakirəsi zamanı komissiyaların iclaslarına dəvət olunur. Komissiyalar öz iclaslarına səsvermə hüquqları olmayan digər ekspertləri dəvət edə bilər. Tender komissiyaları hökumət rəsmilərinin sədrliyi ilə keçirilir.

QKT-lər və bələdiyyələr sosial sifariş tenderlərində iştirak edə bilərlər. Sosial sifariş tenderində iştirak etmək üçün QKT aşağıdakı tələblərə cavab verməlidir:

- QKT kənardan təmin edilən ('autsors' olunan) sosial xidməti tam və ya qismən yerinə yetirməkdə ixtisaslaşmalıdır;
- QKT müqaviləni yerinə yetirmək üçün zəruri peşəkarlıq, təcrübə, texniki və maliyyə resursları, insan resursları, idarəetmə səriştəsi və etibarlılığa malik olmalıdır; və
- QKT-nin ödənməmiş vergi və ya digər icbari ödəniş borcu olmamalıdır.

Dövlət Sifarişli Sosial xidmət haqqında Qaydalara əsasən, Sosial sifariş müqaviləsi əsasında fəaliyyətə nəzarət xidmətləri alan dövlət orqanı tərəfindən həyata keçirilir. Sosial sifariş müqaviləsinin tərəfləri arasında mübahisələr məhkəmədə həll olunmalıdır.

[40] "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının Qanunu #275-IVQ, 2011.
[41] "Sosial xidmət haqqında" Azərbaycan Respublikasının 2011-ci il 30 dekabr tarixli 275-IVQ nömrəli Qanununun tətbiqi ilə bağlı əlavə tədbirlər haqqında Azərbaycan Respublikası Prezidentinin Fərmanı.

9 yanvar 2013-cü il, Azərbaycan tarixində ilk dəfə olaraq, Azərbaycan hökuməti Sosial xidmət haqqında Qanunu icra etmək məqsədilə hüquqi və fiziki şəxslərlə yanaşı QKT-lərdən sosial xidmətlərin alınması üçün dövlət büdcəsindən 2 milyon manat ayrılıb. O vaxtdan, QKT-lər tərəfindən təxminən 20-30 sosial sifariş yerinə yetirilib.

**Fəsil 3. Daxili mənbələrdən gəlirlər:**

- üzvlük haqları;
- sahibkarlıq fəaliyyəti o cümlədən, xidmət müqavilələri.[42]

*Üzvlük haqları*

İctimai birliklər və hüquqi şəxslərin birliklərinin də üzvlüyə əsaslanan QKT-lər kimi nizamnamələrində üzvlük haqqını nəzərdə tutan maddə ola bilər. Qanun "üzvlük haqqı"nın nə olduğunun izahını vermir, amma təcrübədə, yerli ekspertlər "üzvlük haqqı"nı QKT üzvlərinin həmin QKT-nin nizamnaməsi və ya QKT-nin ali idarəetmə orqanının qərarına əsasən, ödədiyi haqq olaraq təfsir edirlər. Üzvlərinin üzvlük haqqı ödəmələri, ödəyəcəkləri təqdirdə məbləği və neçə vaxtdan bir ödənməsi QKT-dən və onun ali idarəetmə orqanından asılıdır. Misal üçün, bəzi QKT-lərdə üzvlük haqqı illikdir. Bu hallarda, QKT-lər illik maliyyə hesabatında gəlir olaraq üzvlük haqlarını da göstərməlidir. Qanunvericilikdə bununla bağlı xüsusi qaydalar nəzərdə tutulmasa da, maliyyə hesabatı üçün üzvlük haqlarını əks etdirən mədaxil qəbzlərin olması vacibdir. Nağd şəkildə ödənilən üzvlük haqlarının mühasibatlığının Azərbaycanın nağdsız hesablaşmalar haqqında qanununa uyğun aparılması və QKT-nin bank hesabına yatırılması məsləhət görülür.

Təşkilatın digər gəlirləri kimi üzvlük haqları da təsisçilər və üzvlər arasında bölüşdürülə bilməz və təşkilatın yaradılması məqsədlərinə nail olunması və kommunal, icarə, dəftərxana ləvazimatları kimi gündəlik inzibati xərcləri qarşılamaq üçün istifadə olunmalıdır.

*Sahibkarlıq fəaliyyəti o cümlədən, xidmət müqavilələri*

Azərbaycan QKT-ləri əldə edilmiş gəliri təsisçiləri və ya üzvləri arasında bölüşdürməyərək, təşkilatın yaradılması məqsədlərinə uyğun olan və onlara nail olunmasına yönəlmiş sahibkarlıq fəaliyyətini həyata keçirə bilər.[43] QKT-nin yaranma məqsədlərinə cavab verən, mənfəət gətirən mal və xidmət istehsalı və satışı, habelə qiymətli kağızların, əmlak və qeyri-əmlak hüquqlarının əldə edilməsi və biznesdə iştirakına icazə verilir. QKT sahibkarlıq fəaliyyəti üzrə gəlir və xərclərinin uçotunu və mühasibatlığını aparmalıdır. Bu gəlirlər vergiyə cəlb olunduğundan QKT onların mühasibatlığını və uçotunu gəlir vergisindən azad olunan gəlirin mühasibatlığından və uçotundan ayrı aparmalıdır.[44] QHT-nin məşğul olduğu fəaliyyət növləri üçün hər hansı bir məhdudiyyət yalnız qanunla müəyyən olunur.

Hər hansı mal və xidmətin satışı ilə məşğul olan QHT gəlir vergisinə cəlb olunur. Adətən əgər bir il ərzində vergi tutulan əməliyyatlarının həcmi 200,000 manatı keçmirsə, sahibkarlıq fəaliyyəti ilə məşğul olan QKT-lər sadələşdirilmiş vergi ödəyicisi kimi qeydiyyatan keçir. Bakı qeydiyyatında olan QKT-lər üçün dövriyyədən sadələşdirilmiş vergi 4% regional təşkilatlar üçünsə – 2% təşkil edir. Amma əgər QKT rayon qeydiyyatında olub, daha çox Bakıda fəaliyyət göstərirsə, "xidmət yeri" əsas götürülərək 4% gəlir vergisi ödəməlidir.[45] (Vergi ilə bağlı ətraflı məlumat üçün Fəsil 4-ə baxın.)

---

[42] Mal və xidmətlərin dövlət satınalması və dövlət sifarişli (müqaviləli) sosial xidmətlərlə bağlı Fəsil 2-ə baxın.
[43] Mülki Məcəllə, Maddə 43.6.
[44] QKT haqqında Qanun, Maddə 22.3.
[45] Vergi Məcəlləsi, Maddə 220.3.

QKT və digər qurumların müəyyən sahibkarlıq fəaliyyətləri üçün lisenziya alınması tələb edilir amma lisenziyalaşdırılan fəaliyyətlərin çox az hissəsi QKT-lərə aid edilə bilər (missal üçün, tibbi fəaliyyət).

"Xidmət Müqavilələrinin Qeydiyyatı Qaydası"na[46] əsasən QKT eləcə də XQKT-lərin Azərbaycanda qeydiyyatdan keçmiş filial və ya nümayəndəlikləri xarici sifarişçilərlə imzaladıqları hər hansı xidmət müqaviləsini (ƏN-də) qeydiyyata aldırmalıdır (icazə almalıdır).

Qaydalarda xidmət müqavilələrinin qeydiyyat proseduru əvvəlki bölmələrdə bəhs etdiyimiz qrantın və ianənin qeydiyyat proseduruna müəyyən qədər oxşardır.

ƏN-nin xidmət müqaviləsinin qeydiyyatından imtina etməsinə görə ƏN-nin yüksək rəsmilərinə inzibati qaydada və Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsinə[47] əsasən məhkəməyə şikayət edilir. Hazırda İnzibati Xətalar Məcəlləsi yerli və xarici QKT-lərə xidmət müqaviləsini qeydiyyata almamağa görə xüsusi cəza nəzərdə tutmur.

*QKT ilə xarici hüquqi şəxs arasında bağlanan xidmət müqaviləsi ilə xarici mənbədən verilən qrant arasında əsas fərqlər[48]:*

1. Sifarişçilər: xarici hüquqi və fiziki şəxslər Azərbaycanda qeydiyyatdan keçmiş yerli və xarici QKT ilə Azərbaycanda donor kimi əlavə qeydiyyatdan keçmək tələbi olmadan xidmət müqaviləsi bağlaya bilər. Bunun əksinə, Azərbaycan QKT-lərinə qrant vermək üçün xarici QKT-lərin həm Azərbaycanda qeydiyyatdan keçmiş ofisinin olması həm də Azərbaycanda donor kimi qeydiyyatdan keçməsi tələb olunur; xarici biznes və ya fiziki şəxslər yox, yalnız xarici QKT-lər Azərbaycanda QHT-lərə qrantlar verə bilər.
2. Vergi: Azərbaycan qanunvericiliyinə əsasən, qeydə alınmış qrant üzrə qəbul edilən vəsait gəlir vergisindən azaddır, lakin bu, xidmət müqavilələri vasitəsilə qəbul edilən gəlirlərə şamil edilmir. Nəticədə, xarici təşkilatla xidmət müqaviləsi imzalayan yerli və ya xarici sifarişçi-QKT vergi ödəməlidir.

Xidmət müqavilələrinin qeydiyyat qaydası xidmətlərin göstərilməsi və işlərin görülməsi üçün olan müqavilələrə eləcə də onlara hər hansı düzəliş və dəyişikliklərə tətbiq olunur. Xidmət müqaviləsinin qeydiyyatdan keçirilməsi icraçının vəzifəsidir. Qaydaların mətnindən belə aydın olur ki, bu qaydalar malların satışına tətbiq olunmur. Yalnız qeydiyyatdan keçmiş Azərbaycan QHT-ləri ilə Azərbaycanda qeydiyyatdan keçmiş ofisləri olan XQHT-lər müqavilə icraçıları kimi xidmət müqaviləsi imzalaya bilərlər.

*Müddət*

Müqavilə bağlanıldığı tarixdən 15 gün ərzində QKT xidmət müqaviləsinin qeydiyyata alınması üçün müraciət etməlidir. Qeydiyyat ərizəsinə baxmaq üçün Ədliyyə Nazirliyinin 15 gün vaxtı var. "Əlavə araşdırmaya ehtiyac olduğu" müəyyən olunarsa, ƏN-nin bu müddəti daha 15 gün uzatmaq səlahiyyəti var. Əlavə olaraq, ƏN çatışmazlıqlar aşkar etdikdə və ərizəçidən onları aradan qaldırmağı tələb etdikdə bu müddəti daha 5 gün uzatmaq səlahiyyəti var (beləliklə, cəmi 35 gün).

*Xidmət müqaviləsinin qeydiyyata alınması üçün müraciət*

---

[46] Azərbaycan Respublikası Nazirlər Kabineti tərəfindən 21 oktyabr 2015-ci il tarixində qəbul edilən və 20 noyabr 2015-ci ildə dərc edildiyi vaxtdan qüvvəyə minən Xidmət müqavilələrinin qeydiyyatı Qaydaları.

[47] Azərbaycan Respublikası İnzibati Prosessual Məcəlləsi, 2011.

[48] Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyata alınması Qaydasının icmalı, ICNL, 23 noyabr 2015-ci il.

Xidmət müqaviləsinin qeydiyyata alınması üçün ərizəçi-QKT ƏN-ə aşağıdakıları təqdim etməlidir:

- müqavilənin qeydiyyata alınması üçün Qaydada təsdiq olunmuş formata uyğun hüquqi nümayəndə tərəfindən imzalanmış və QKT-nin möhürü vurulmuş ərizə;
- tərəflərin imzaladığı müqavilənin əsli;
- sifarişçinin şəxsiyyətini təsdiq edən sənədin surəti (yəni, fiziki şəxsin pasportu və ya hüquqi şəxsin qeydiyyat şəhadətnaməsi (ticarət reyestrindən çıxarış));
- müqavilə üzrə göstərilən xidmətlər və ya görülən işlər barədə müqavilənin məqsədi, müqavilənin başlama və başa çatma tarixi, mövcud vəziyyət, nəticələr, faydalanan şəxslər, iş və xidmətin həcmi, məbləği və xidmət göstəriləcəyi yer daxil olmaqla ətraflı məlumat.

Qaydaya əsasən, ƏN-nin aşağıdakıları araşdırmaq səlahiyyəti var:

- tələb olunan bütün sənədlərin təqdim edilməsi və həmin sənədlərdə göstərilmiş məlumatların düzgünlüyü;
- müqavilə üzrə həyata keçirilməsi nəzərdə tutulan tədbirlərin Azərbaycan Respublikasının qanunvericiliyinə, icraçı-QKT-nin nizamnaməsinə (əsasnaməsinə) uyğunluğu;
- müqaviləni imzalamış şəxsin müvafiq səlahiyyətə malik olması;
- icraçı -QKT-nin MN-ə illik maliyyə hesabatlarını təqdim etməsi;
- icraçı -QKT-nin "Korrupsiyaya qarşı mübarizə haqqında"[49], "Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında"[50] və "Terrorçuluğa qarşı mübarizə haqqında"[51] qanunlara riayət edib-etməməsi;
- müqavilənin tərkib hissəsi olan layihənin təqdim edilməsi (Qaydadan bu tələbin mahiyyəti aydın olmur; ƏN-in əlavə şərhinə ehtiyac ola bilər);
- icraçı -QKT-nin təsis sənədlərinin qanunvericiliyə uyğunluğu (Bu tələb təsis sənədlərinin qanunvericiliyə edilən son dəyişikliklər ilə uyğunluğu və ya qanunvericiliyə edilən son dəyişiklikləri daxil etmək üçün təsis sənədlərinə edilmiş düzəlişlərin qanuna uyğun edilməsini yoxlamaqdır); və
- müqavilənin kommersiya və ya qeyri-kommersiya xarakterli olması (hesab edilir ki, xidmət müqaviləsinin qeyri-kommersiya xarakterli olması təsdiq olunarsa, müqavilənin faktiki olaraq qrant müqaviləsi olması və bu səbəbdən qrantın qeydiyyatı qaydalarına əsasən qeydiyyata alınmalı olduğu əsas gətirilərək onun qeydiyyatından imtina edilə bilər).

ƏN müqaviləni qeydiyyata almaqdan aşağıdakı hallarda imtina edə bilər:

- qanunla tələb olunan bütün sənədlər təqdim edilmədikdə;
- ƏN tərəfindən məsələlər üzrə araşdırma nəticəsində çatışmazlıqlar aşkar edildikdə;
- ərizədə göstərilən məlumatlar və (və ya) ona əlavə edilən sənədlər yanlış olduqda;
- ƏN tərəfindən aşkar edilmiş çatışmazlıq verilmiş beş gün ərzində aradan qaldırılmadıqda.

Qayda ƏN-dən qeydiyyatdan imtinanın səbəbini əsaslandırmağı tələb etmir.

---

[49] Korrupsiyaya qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanunu # 580-IIQ, 13 yanvar 2004.
[50] Cinayət yolu ilə əldə edilmiş pul vəsaitlərinin və ya digər əmlakın leqallaşdırılmasına və terrorçuluğun maliyyələşdirilməsinə qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanunu #767-IIIQ, 10 fevral 2009.
[51] Terrorçuluğa qarşı mübarizə haqqında Azərbaycan Respublikası Qanunu #687-IQ, 18 iyun 1999.

## Fəsil 4. QKT-lərin və donorların vergiyə cəlb olunması[52]

### A. QHT-lərin vergiyə cəlb olunması

Vergi Məcəlləsində "qeyri-kommersiya təşkilatı"[53] ifadəsi işlədilsə də, mənası izah olunmur.[54] Mülki Məcəllədə qeyri-kommersiya hüquqi şəxsi "əsas məqsədi mənfəət götürməkdən ibarət olmayan və götürülən mənfəəti iştirakçıları arasında bölüşdürməyən hüquqi şəxs" kimi izah olunur.[55] Ümumiyyətlə QKT-lər Azərbaycan Vergi Məcəlləsinə əsasən gəlir vergisi ödəyiciləridir. Gəlir vergisindən azadolmalar yalnız gəlirlərin müəyyən növünə tətbiq olunur. Əksər Azərbaycan QKT-ləri gəlir vergisi ödəmir çünki qrantdan əldə olunan gəlirlər gəlir vergisindən azaddır. (Əksər QKT-lər üçün əsas və çox vaxt yeganə gəlir qrantdır.) Qrantlar gəlir vergisindən azaddır. Əlavə olaraq, qeyri-kommersiya təşkilatının əvəzsiz köçürmələr, üzvlük haqları və ianələrdən qəbul etdiyi gəlirlər gəlir vergisindən azaddır.[56]

Vergi Məcəlləsində xeyriyyəçilik fəaliyyətini həyata keçirən qeyri-kommersiya təşkilatı kimi izah olunan "xeyriyyə təşkilatı" ifadəsindən də istifadə olunur.[57] Xeyriyyə təşkilatları sahibkarlıq fəaliyyətindən əldə edilən gəlir istisna olmaqla, gəlir vergisindən azaddır.[58] Vergi Məcəlləsi "qeyri-kommersiya fəaliyyəti" ifadəsinin izahını bu cür verir "məqsədi gəlir götürmək olmayan və əldə etdiyi gəliri yalnız qeyri-kommersiya məqsədləri, o cümlədən öz nizamnamə məqsədləri üçün istifadə etməyi nəzərdə tutan qanunla qadağan edilməyən fəaliyyətin həyata keçirilməsidir, əks halda bu fəaliyyət kommersiya fəaliyyəti sayılır.[59]" Buna əlavə olaraq, ianələr, üzvlük haqları və əvəzsiz köçürmələri aydın şəkildə vergidən azad etmək üçün qeyri-kommersiya fəaliyyətindən gələn gəlirlərə digərləri ilə yanaşı həmçinin dividentlər, faizlər, mülkiyyətin bir dəfəlik satışından əldə edilən gəlir, xarici valyuta mübadiləsindən əldə edilən gəlir daxil edilə bilər. Lakin xeyriyyə təşkilatı statusunu əldə etmək üçün bir prosedur mövcud deyil; beləliklə təcrübədə bu istisnadan faydalanmaq mümkün deyil.[60] Bundan başqa,Vergi Məcəlləsində gördüyümüz bu "xeyriyyə təşkilatı" ifadəsinə təəssüf ki, Azərbaycanın digər heç bir qanununda rast gəlmirik. Əlavə olaraq, Vergi Məcəlləsində və ya başqa yerdə "xeyriyyə təşkilatı" ilə xeyriyyə təşkilatı hesab edilməyən lakin, təhsil, səhiyyə, sosial və digər xeyriyyə xidmətləri göstərən QKT-ni fərqləndirmək üçün obyektiv prosedur mövcud deyil. Beləliklə hansı QKT-lər bundan faydalana bilər və ya faydalanmaq üçün necə müraciət edə bilər əminliklə müəyyən etmək çətindir. Qeyd etmək lazımdır ki, Vergi Məcəlləsində izahın olmadığına görə, aydın olmur ki, bundan faydalanmaq üçün təşkilat yalnız xeyriyyə işləri görməlidir və ya əksinə, xeyriyyə fəaliyyəti (digər fəaliyyətinə əlavə olaraq) həyata keçirən hər hansı QKT bu haqqı qazana bilər.

---

[52] Bu fəsildə "Azərbaycan Respublikasında Qeyri-Hökumət Təşkilatları üçün hüquqi Çərçivənin Qiymətləndirilməsi" üçüncü nəşr 2014 (USAİD-in maliyyələşdirdiyi Chemonics International təşkilatı tərəfindən həyata keçirilən İnkişaf naminə Yerli Bacarıqların Artırılması proqramı üçün ICNL-in hazırladığı vəsait) vəsaitindəki məlumatlardan istifadə etmişdir.

[53] Bir daha qeyd edirik ki, Vergi Məcəlləsində QHT haqqında Qanunda gördüyümüz "qeyri-hökumət təşkilatı" ifadəsi yox, "qeyri-kommersiya təşkilatı" ifadəsi istifadə olunur. 4.3-cü bölməyə baxın. Amma bu vəsaitin məqsədləri üçün biz "QHT" ifadəsindən istifadə edirik.

[54] Vergi Məcəlləsinin 13.2.42-ci maddəsi yalnız "qeyri-kommersiya hüquqi şəxs" ifadəsinin izahını verən Mülki Məcəlləyə istinad edir.

[55] Mülki Məcəllə, Maddə 43.5.

[56] Vergi Məcəlləsi, Maddə 106.1.2.

[57] Vergi Məcəlləsi, Maddə 13.2.36.

[58] Vergi Məcəlləsi, Maddə 106.1.1.

[59] Vergi Məcəlləsi, Maddə 13.2.27.

[60] Vergi Məcəlləsi, Maddə 106.1.1.

*Ümumiyyətlə vergidən azad olan gəlirlər*
Yuxarıda qeyd olunduğu kimi, QKT-nin qəbul etdiyi gəlirin üç növü Vergi Məcəlləsinə əsasən vergidən azaddır: aktivlərin əvəzsiz köçürmələri, üzvlük haqları və ianələr. Bu cür gəlirlər Vergi Məcəlləsi çərçivəsində müəyyən olunmur. QKT haqqında Qanunda İanənin izahı "qeyri-hökumət təşkilatının qarşısında hər hansı məqsədə nail olmaq vəzifəsi qoymadan ona bu qanunla nəzərdə tutulmuş qaydada maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada verilən yardım" kimi verilir.[61]

Gəlirin dördüncü forması -- qrantlar -- Vergi Məcəlləsi xüsusi olaraq qrantları azad etməsə də, praktıkada gəlir vergisindən azaddır.

Qrant haqqında Qanunun əvvəlki versiyası qrantı gəlir vergisindən azad edirdi,[62] lakin hazırkı qanunda qeyd olunur ki, "qrant və ya digər pul və ya maddi yardım əldə etməklə bağlı vergi məsələləri Azərbaycan Respublikasının Vergi Məcəlləsi ilə tənzimlənir".

*Sahibkarlıq(Biznes) Fəaliyyətindən Əldə Olunan Gəlirlərin Vergiyə Cəlb Olunması*
Vergi Məcəlləsində sahibkarlıq fəaliyyəti şəxsin müstəqil surətdə həyata keçirdiyi, əsas məqsədi əmlak istifadəsindən, malların təqdim edilməsindən, işlərin görülməsindən və ya xidmət göstərilməsindən mənfəət götürülməsi olan fəaliyyətidir.[63]

Vergi Məcəlləsinə əsasən, xeyriyyə təşkilatları da daxil olmaqla QKT-lərin sahibkarlıq fəaliyyətindən əldə etdiyi gəlir vergiyə cəlb olunur. QKT-nin nizamnaməsində nəzərdə tutulan məqsədlərə əsaslanan və ya əsaslanmayan fəaliyyətdən irəli gələn gəlirlər arasında heç bir fərq qoyulmur.

QKT haqqında Qanun QKT-lərdən sahibkarlıq fəaliyyətinin gəlirləri və xərcləri üçün ayrıca mühasibatlığın aparılmasını tələb edir.[64]

Xeyriyyə tədbirləri, hərraclar və vəsait toplamaq məqsədilə həyata keçirilən buna bənzər fəaliyyətlərdən əldə olunan gəlirləri QKT lazımi qaydada sənədləşdirərsə, ianə hesab edilir. Ümumi qayda olaraq, bu gəlirlərin hamısı QKT-lərin qanuni məqsədləri üçün istifadə olunmalıdır.

***Passiv (İnvestisiya) gəlirlərin vergiyə cəlb olunması***

Rezident hüquqi şəxs ödəniş mənbəyində vergiyə cəlb olunmuş faiz ödənişi qəbul edirsə, faizin məbləği şirkətin vergi tutulan gəlirlərinə daxil edilir. Bu halda ödəmə mənbəyində verginin tutulduğunu təsdiq edən sənədlər təqdim edilməklə ödəniş mənbəyində tutulan verginin məbləği hüquqi şəxsin hesabat dövrü üçün ümumi gəlir vergisi öhdəliyindən çıxıla bilər.[65]

*Sosial ödənişlər, Torpaq vergisi və QHT-lərə tətbiq edilən digər vergilər*

---

[61] QHT haqqında Qanun , Maddə 24-1.1.
[62]Qrant haqqında Qanunun 5(1) bölməsində qeyd edilir ki, nəzərdə tutulmuş qaydada əldə edilmiş pul və digər maddi yardım vergilər, rüsumlar və dövlət büdcəsinə icbari ödənişlərin bütün növlərindən azaddır.
[63]Vergi Məcəlləsi, Maddə 13.2.37.
[64] QHT haqqında Qanun, Maddə 22.3.
[65] Bu dividendlərə deyil, yalnız faizlərə aiddir. Sonuncu halda, ödəmə mənbəyindən10 faiz vergi tutma qətidir..

Azərbaycanda əmlak vergisi, sosial sığorta ödənişi və torpaq vergisi tətbiq edilir. Vergi tutulan obyektlərin sahibi bütün müəssisələr və fiziki şəxslər əmlak vergisi məqsədləri üçün vergi ödəyicisidir.[66]

Əmlak vergisinin qiymətləndirilməsi üçün vergi bazası, fiziki şəxslər üçün onların mülkiyyətində olan tikililər və nəqliyyat vasitələrinin dəyərinin, müəssisələrin əmlak vergisinin qiymətləndirilməsi üçün vergi bazası əsas vəsaitlərin orta illik balans dəyəri və nəqliyyat vasitələrinin balans dəyəri hesab olunur. Müəssisələrin əsas vəsaitlər üzrə əmlak vergisi bir faiz təşkil edir.

QKT-lər Sosial Müdafiə Fonduna əmək haqlarının cəminin 22 faizini ödəməlidir, amma Nazirlər Kabineti tərəfindən koordinasiya edilən və əhalinin yaşayış şəraitinin yaxşılaşdırılması üçün Dövlət Proqramının icrası dövründə qaçqın və məcburi köçkünlərə (DMK) yardım göstərilməsi ilə məşğul olan QKT-lər (yerli və xarici) yalnız gəlir vergisi ödəməklə, bundan azaddır.[67] Bundan başqa, Azərbaycan hökuməti ilə ABŞ hökuməti və Avropa Birliyi Komissiyası arasındakı ikitərəfli sazişlərə əsasən sonuncular və ya onun agentləri tərəfindən verilən qrant əmək haqqına görə 22 faizli ödəmədən azaddır.

Azərbaycan Respublikası ərazisində mülkiyyətində və ya istifadəsində torpaq sahəsi olan müəssisələr və fiziki şəxslər torpaq vergisinin məqsədləri üçün vergi ödəyicisidir. Torpaq vergisi illik əsasla vergi ödəyicisinin mülkiyyətində və ya istifadəsində olan torpaq sahəsinin böyüklüyündən, yerindən və məqsədindən asılı olaraq fərqli dərəcələrlə ödənilir.

Torpaq vergisindən azad olan müəssisələrə həmçinin fiziki qüsurlu və dövlət tərəfindən maliyyələşən qurumların ictimai təşkilatları daxildir. Həmçinin əmlak vergisi rəssamların emalatxana kimi istifadə etdikləri tikililərə tətbiq edilmir. Əmlak vergisi məbləğinin qiymətləndirilməsi üçün vergi bazası təhsil, səhiyyə, mədəniyyət və idman müəssisələrinin istifadəsində olan, əgər onların əsas məqsədi üçün istifadə olunursa, tikilinin (obyektlərin) dəyərindən asılı olaraq endirilir. Torpaq vergisi ilə bağlı heç bir güzəşt QKT-lərə tətbiq olunmur.

Aksiz vergisi, yol vergisi və müəyyən olunmuş digər vergilər təşkilatın kommersiya və ya qeyri-kommersiya statusundan asılı olmayaraq tətbiq edilir.

## B. Donorlar üçün azadolmalar

*Xeyriyyə məqsədli ödənişlər üçün azadolma*

Nə hüquqi nə də fiziki şəxslərə xeyriyyə təşkilatları və ya QKT-lərə etdikləri yardıma görə hər hansı azadolma nəzərdə tutulmur.

## C. QKT-lər və donorların ƏDV-yə cəlb olunması

*Qeydiyyat üçün hədd.* Sahibkarlıq fəaliyyəti göstərən və illik vergi tutulan əməliyyatlarının həcmi 200.000 manatdan (115,000$) artıq olan təşkilatlar əlavə dəyər vergisi (ƏDV) ödəyicisi kimi qeydiyyatdan keçməlidir.[68] Təşkilatlar bu tarixdən 10 gün ərzində qeydiyyatdan keçməlidir. Gəliri bu həddən aşağı olan şəxslər könüllü olaraq ƏDV ödəyicisi kimi

[66] Təcrübədə, bu vergi sahibkarlıq fəaliyyəti ilə məşğul olmasından asılı olmayaraq QKT-lərə tətbiq edilir.
[67] Sosial Sığorta haqqında Azərbaycan Respublikasının Qanunu, Maddə15.18 (fevral 1997) (bundan sonra "Sığorta Qanunu" adlanacaq).
[68] Vergi Məcəlləsi, Maddə 155.1.

qeydiyyatdan keçə bilər.[69]

*Vergidən azad əməliyyatlar*.Vergi Məcəlləsinin 164-cü maddəsi kommersiya və ya qeyri-kommersiya şəxslər tərəfindən həyata keçirilməsindən asılı olmayaraq idxalı və satışı ƏDV-dən azad olan ləvazimatların siyahısını tərtib edir. Həmin istisnalar həmçinin aşağıdakı xidmətlərə aiddir:

- kütləvi informasiya vasitələri məhsullarının alqı-satqısı üzrə dövriyyələr, redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti (reklam xidmətləri istisna olmaqla);[70]

- ümumtəhsil müəssisələri üçün dərslik, uşaq ədəbiyyatı və büdcədən subsidiyalaşdırılmış dövlət əhəmiyyətli nəşrlərin istehsalı ilə bağlı redaksiya, nəşriyyat və poliqrafiya fəaliyyəti;[71] və

- qəbiristanlıq və dəfn mərasim xidmətləri[72].

Azərbaycanın tərəfdar çıxdığı beynəlxalq müqaviləyə uyğun olaraq beynəlxalq təşkilat və ya xarici hüquqi və ya fiziki şəxsin "təmənnasız pul köçürmələri" hesabına maliyyələşdirilən iş, xidmətlər və ya mal alan yaxud idxal edən[73] şəxslər üçün xüsusi prosedur yaradılmışdır.

Resipiyentlər vergi tutulan əməliyyat və ya vergi tutulan idxal baş verdiyi aydan sonrakı təqvim ayı ərzində ödədikləri hər hansı ƏDV-ni geri almaq üçün vergi orqanlarına müraciət etməlidirlər. Geri ödəmə müraciət qəbul edildikdən 45 gün ərzində həyata keçirilir. Yuxarıda təsvir edildiyi kimi ƏDV qiymətə daxildirsə, bu prosedur həmçinin qrant vəsaiti hesabına edilən alışları (müəyyən tələblərə cavab verən qrant hesabına edilmiş əməliyyatlara ƏDV-nin sıfır dərəcəsi tətbiq edilir) da əhatə edir.

Azərbaycanda ABŞ-la Azerbaycan arasındakı ikitərəfli saziş əsasında fəaliyyət göstərən bəzi xarici QKT-lər ƏDV-nin qaytarılması ilə bağlı bəzi çətinliklə üzləşiblər. Xüsusilə Vergilər Nazirliyi hesab edir ki, ƏDV-nin 0 dərəcəsi əlavə və dolayı xərclərə deyil yalnız birbaşa layihə xərcləri üçün olan qranta tətbiq olunur. [74]

## Fəsil 5. Könüllülüyün hüquqi tənzimlənməsi

Bu fəsildə Azərbaycanda könüllü fəaliyyətin 2009-cu il Könüllü fəaliyyəti haqqında Azərbaycan Respublikasının Qanunu ilə nəzərdə tutulan hüquqi tənzimlənməsi ilə bağlı məsələlər araşdırılacaq.

*Könüllü kimdir?*

> Könüllü öz sərbəst seçimi əsasında əvəzi ödənilməyən ictimai faydalı fəaliyyəti həyata keçirən Azərbaycan Respublikasının vətəndaşı, əcnəbi və ya vətəndaşlığı olmayan şəxsdir.

*Könüllü fəaliyyətin təşkilatçısı kimlərdir?*

---

[69] Vergi Məcəlləsi, Maddə 156.
[70] Vergi Məcəlləsi, Maddə 164.1.7.
[71] Vergi Məcəlləsi, Maddə 164.1.8.
[72] Vergi Məcəlləsi, Maddə 164.1.9.
[73] Göründüyü kimi, Vergi Məcəlləsində deyil, ƏDV-yə dair Təlimatda yalnız bir dəfə qeyd edildiyinə baxmayaraq, burada *idxal* da əhatə olunur.
[74] Vergilər Nazirliyinin ABA təşkilatına 3 aprel 2012-ci il tarixli məktubu (müəllifdə mövcuddur).

Könüllü fəaliyyət dövlət orqanları, dövlət büdcəsindən maliyyələşən təşkilatlar, yerli hökumət və qeyri-hökumət təşkilatları tərəfindən təşkil oluna bilər.

*Könüllü fəaliyyətin istiqamətləri*

Qanun könüllü fəaliyyətin aşağıdakı istiqamətlərini müəyyən edir:

- əlillərə, kimsəsizlərə, qocalara, aztəminatlı ailələrə, qaçqınlara və məcburi köçkünlərə kömək edilməsi;
- insanpərvərliyin və dözümlülüyün təbliği;
- istehlakçıların hüquqlarının qorunması;
- hüquqi və mədəni maarifləndirmə;
- uşaq və gənclərin təhsili, tərbiyəsi, fiziki və əqli inkişafı;
- idmanın inkişafı;
- xəstəliklər və epidemiyalar barədə məlumatlandırma;
- sağlam həyat tərzinin təbliği;
- ətraf mühitin mühafizəsi;
- tarix və mədəniyyət abidələrinin, mədəni və mənəvi irsin qorunması;
- silahlı münaqişələr, təbii fəlakətlər, sənaye qəzaları, yanğınlar, epidemiyalar, epizootiyalar və digər fövqəladə halların nəticələrinin aradan qaldırılmasına, o cümlədən fövqəladə hallar nəticəsində zərər çəkmiş şəxslərə yardım göstərilməsi;
- cəzaçəkmə müəssisələrindən azad edilən, narkotik asılılığa düçar olan, məişət zorakılığına məruz qalan şəxslərə və çətin həyat şəraitində olan digər şəxslərə kömək edilməsi;
- Azərbaycan Respublikası qanunvericiliyinin tələblərinə zidd olmayan digər ictimai faydalı fəaliyyət sahələri.

*Könüllü fəaliyyətin şərtləri və məhdudiyyətlər*

*Könüllü fəaliyyətin aşağıdakı məhdudiyyətləri var*:

- Şəxs öz iş yerində könüllü fəaliyyətlə məşğul ola bilməz.
- Könüllülər işçi çatışmazlığının qarşısını almaq məqsədi ilə istifadə edilə bilməz.
- Könüllü fəaliyyət kommersiya hüquqi şəxslərin xeyrinə istifadə edilə bilməz.
- Yetkinlik yaşına çatmamış şəxslər valideynlərinin və ya qanuni nümayəndələrinin razılığı əsasında könüllü fəaliyyət ilə məşğul ola bilərlər.
- Könüllülər yalnız yazılı müqavilə əsasında könüllü fəaliyyətlə məşğul ola bilər.

*Könüllülərin hüquq və vəzifələri*

Könüllülərin aşağıdakı hüquqları vardır:

- təhlükəsiz və sağlam əmək şəraitinini və zəruri hallarda təhlükəsizlik normaları üzrə təlim keçirilməsini tələb etmək;
- könüllü fəaliyyətin şərtləri və xarakteri haqqında informasiya əldə etmək;
- könüllü fəaliyyət haqqında informasiya yaymaq;
- könüllü fəaliyyətin təşkilatçılarından görülən işlərin yeri, həcmi, xarakteri və vaxtı göstərilməklə, könüllü fəaliyyət haqqında yazılı arayış almaq;

- könüllü fəaliyyət könüllünün daimi yaşadığı yaşayış məntəqəsinin hüdudlarından kənarda həyata keçirildikdə gündəlik xərclərin ödənilməsini könüllü fəaliyyətin təşkilatçılarından tələb etmək;
- könüllü fəaliyyəti həyata keçirərkən həyatına və sağlamlığına dəymiş zərərin əvəzini könüllü fəaliyyətin təşkilatçılarından almaq;
- sığorta olunmaq və
- öz əmlakından istifadəyə görə kompensasiya almaq.

Könüllünün vəzifələri:

- əməyin mühafizəsi və təhlükəsizlik qaydalarına riayət etmək;
- könüllü fəaliyyəti təşkil edən təşkilatın intizam qaydalarına riayət etmək;
- təşkilatçının tələbi ilə könüllü fəaliyyət haqqında məlumat və hesabat təqdim etmək;
- vurduğu ziyana görə məsuliyyət daşımaq;
- təşkilatçının fəaliyyətdə könüllülərin iştirakını tənzimləyən müqavilənin şərtlərinə uyğun göstərişlərinə əməl etmək və
- könüllü fəaliyyət zamanı öyrənilən məxfi və ya şəxsi məlumatları açıqlamaqdan çəkinmək.

*Könüllü fəaliyyətin təşkilatçısının hüquq və vəzifələri*

*Təşkilatçının hüquqları*:

- könüllülərdən müqavilədən irəli gələn öhdəliklərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini tələb etmək;
- görülmüş işlər haqqında könüllülərdən məlumat və hesabat almaq və
- könüllü fəaliyyət həyata keçirilərkən könüllü tərəfindən vurulmuş maddi ziyanın ödənilməsi üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq tədbirlər görmək.

*Təşkilatçının* vəzifələri:

- könüllü fəaliyyəti həyata keçirən hər bir könüllü ilə müqavilə bağlamaq;
- könüllülərə onların hüquq və vəzifələrini izah etmək, onları təlimatlandırmaq;
- könüllülərin tələbi ilə könüllü fəaliyyət haqqında müvafiq arayışlar vermək;
- könüllüləri yerinə yetirəcəkləri işin həyat və sağlamlıq üçün hər hansı təhlükəsi barədə məlumatlandırmaq;
- könüllünün həyat və sağlamlığını sığorta etmək;
- könüllülərə qarşı ayrı-seçkiliyə yol verməmək;
- könüllü əcnəbilər və vətəndaşlığı olmayan şəxslər barədə Dövlət Miqrasiya Xidmətinə məlumat vermək.

Könüllülərlə müqavilə:

- yazılı olmalı;
- könüllü fəaliyyətin təşkilatçısı ilə könüllü tərəfindən imzalanmalı;
- müqavilə bağlayan tərəflər haqqında məlumatlar, onların hüquq və vəzifələri, o cümlədən görüləcək işlər və göstəriləcək xidmətlər, müqavilənin müddəti, tərəflərin məsuliyyəti və müqaviləyə xitam verilməsi qaydası göstərilməli və

- könüllü fəaliyyətin həyata keçirilməsi ilə bağlı üçüncü şəxslərə dəymiş zərərin ödənilməsi qaydası və məsuliyyət müqavilə ilə müəyyən edilir.

  Könüllü ilə müqavilələrin bağlanılmamasına görə vəzifəli şəxslər 1000 manatdan 2000 manatadək, hüquqi şəxslər 2500 manatdan 3000 manatadək məbləğdə cərimə edilir.

  Könüllü fəaliyyətlə bağlı münasibətləri tənzimləyən müqavilə formasını Əlavələr hissəsindən əldə edə bilərsiniz.

## Fəsil 6. Xarici ölkələrdə innovativ gəlir mənbələrinin xülasəsi

### Qəpik qutuları

Azərbaycan Respublikası qanunvericiliyi qəpik qutularını tənzimləmir və nağd ianələrə icazə vermir. Həmçinin, bir çox ölkələrdə bu icazə verilən adi hal olsa da, anonim ayırmalar (yəni ianələr) qadağandır.

Başqa ölkələrin təcrübəsinə əsasən[75] "qəpik qutuları" vasitəsilə ianə toplanması zamanı adətən ianə taplayandan tələb edilir:

- ictimai ianə toplanması proseduru üçün əsasnamə hazırlamaq və təsdiq etmək;
- ianənin toplanılması məqsədinə dair elan hazırlamaq və elanı qutunun üzərində yerləşdirmək;
- "qəpik qutuları"nın yerləşdiriləcəyi müəssisələrlə müqavilə bağlamaq;
- "qəpik qutuları"nın yerləşdirildiyi ünvan, aksiyanın başlama və bitmə tarixləri, qutuların açılmasında iştirak edən məsul şəxslərin və komissiya üzvlərinin adları göstərilməklə ianə toplama aksiyasının başlamasına dair əmr vermək. Qutuya plomb qoymaq.
- aksiya müddətində qutuya monitorinqi təmin etmək;
- aksiya müddətində ianə verən hər bir şəxsin tam adını və şəxsiyyət vəsiqəsinin surətini almaq;
- qutunu akt tərtib edərək komissyanın iştirakı ilə açmaq;
- toplanmış ianə məbləğini QKT-nin kassasına və ya bank hesabına köçürmək;
- toplanmış vəsaitin mühasibat uçotunda əks etdirilməsi;
- toplanmış vəsait haqqında məlumatın illik maliyyə hesabatına daxil edilməsi.

### Əhalidən vəsaitin toplanması (*kraudfandinq*)

Kraudfandinq QKT, fiziki şəxs, və ya hər hansı digər müəssisəni özünün irəli sürdüyü təşəbbüsü ilə birbaşa donorla əlaqələndirən maliyyələşmə metodudur.[76] Bu, həmçinin müəyyən layihənin ictimaiyyət ilə sınaqdan keçirilməsinə imkanı verir.

Azərbaycanın Mülki Məcəlləsinin 406-cı maddəsinə əsasən müqavilələr yazılı formada tərtib edilməlidir. Lakin yazılı müqavilə bununla yekunlaşmır həmçinin donorun arzusunu təsdiq edən məktub və digər sənədlərin mübadiləsini də ehtiva edir.

Qonşu Rusiyada kraudfandinqin aşağıdakı variantları mövcuddur:

- SMS kampaniyaları.
- bank kartları vaitəsilə online ianə.
- e-cüzdan vasitəsilə online ianə.
- ödəmə nöqtələri vasitəsilə ödənişlər.[77]

Azərbaycanda QHT-lər yəgin ki, e-cüzdan vasitəsilə ianə istisna olmaqla, bu variantları təcrübədən keçiriblər.

Kraudfandinq pul əməliyyatlarının əlaqələnməsini və prosedurunu asanlaşdırmaq üçün yaradılmışdır və web pultoplama platformaları vasitəsilə keçirilir. Bu ya beynəlxalq (misal üçün, www.causes.com, www.kickstarter.com və s.) ya da milli platformalar (misal üçün, www.darujme.sk Slovakia və ya www.darujme.cz Çexiya Respublikası) ola bilər.

---

[76] Avropada Vətəndaş Cəmiyyəti İnstitutları tərəfindən daxili vəsaitin artırılmasında yeni təcrübələr, 2014, ECNL, www.ecnl.org

[77] Краудфандинг в России: Электронные пожертвования НКО. Юридическое обеспечение.

Rusiyada uğurlu pultoplama platformalarından biri www.boomstarter.ru-dur. Yaradıcı ideyası və ya bir layihəsi olan, lakin həyata keçirmək üçün heç bir vəsaiti olmayan hər hansı bir şəxs öz ideyasını / layihəsini online təqdim edir və dünyanın hər yerindən bunu bəyənən sponsorlar ona yardım edir. Müəyyən edilmiş müddət ərzində kifayət qədər vəsait toplanmazsa, yığılmış vəsait sponsora geri qaytarılır.

Kraudfandinqin həmçinin fırıldaqçılıq, vəsaitlərin sui-istifadəsi, yanlış reklam, kampaniya uğursuz olduğu təqdirdə vəsaitlərin geri qaytarılması kimi potensial riskləri mövcuddur.[78]

*SMS kampaniyaları*
SMS kampaniyaları çox qısa vaxt ərzində əhəmiyyətli məbləğdə ianə səfərbər edə bilər. Misal üçün, 2010-cu ildə Haitidə baş verən zəlzələ zamanı BQXK SMS-kampaniyasına başlamış və bir neçə həftədə 43.000.000 $ vəsait toplanmışdır.

Azərbaycan qanunvericiliyi mobil operatorlara e-ödənişlərin köçürülməsini həyata keçirmək üçün icazə vermir. Onlar bu prosesdə vasitəçidir və əməliyyat yalnız bank və ya kredit təşkilatı tərəfindən həyata keçirilir.

Azərbaycanda SMS vasitəsilə edilən ianələr vergiyə cəlb olunur. Həmçinin müvafiq mobil rabitə operatorunun vergi statusuna müvafiq olan dərəcədə mobil rabitə operatorları və ya banklarla bağlı bəzi xərclər ola bilər.

*Bank kartları və e-cüzdan*
Azərbaycan qanunvericiliyi bank kartları vasitəsilə ianələri qadağan etmir. Lakin, bank kartları vasitəsilə vəsait toplamaq niyyətində olan QKT-lərin belə bir kampaniya aparması üçün müəyyən qaydalar vardır. Bu daxili idarəçilik, qayda qanunlar ola bilər. Bu kampaniyanın başlaması üçün təşkilatın idarə heyətinin və ya rəhbərin icazəsi tələb olunur. Bütün bu sənədlər sponsorların tanış olması üçün təşkilatın internet səhifəsində yerləşdirilməlidir. Digər bir mühüm sənəd əməliyyatın online həyata keçirilməsi üçün bankla müqavilədir.

Bütün bunlar tamamlandıqdan sonra təşkilat öz internet səhifəsində müqavilə təklifini yerləşdirməlidir. Donor vəsaiti köçürdüyü və ya müqaviləyə qoşulduğu andan müqavilə bağlanmış hesab olunur.

Təşkilat həmçinin açıq şəkildə donora təşəkkür etməli və toplanmış vəsaitin istifadəsi haqqında hesabat verməlidir.

Qoşmalar
a. Donorun qeydiyyatına dair ərizə forması.
b. Qrantın qeydiyyatına dair ərizə forması.
c. Xidmət müqavilələrinin qeydiyyatına dair ərizə forması.
d. İanənin qeydiyyatına dair ərizə ərizə forması.
e. Könüllülərlə bağlanmalı müqavilə.
f. Xidmət müqaviləsi.
g. İnzibati Xətalar Məcəlləsindən çıxarışlar.
h. İanə müqaviləsi (hüquqi şəxs maddi formada ianə verdikdə).
i. İanə müqaviləsi (Fiziki şəxs nağd şəkildə ianə verdikdə).
j. İanə verilməsinə dair akt (ianə maddi formada verildikdə).

[78] Avropada Vətəndaş Cəmiyyəti İnstitutları tərəfindən daxili vəsaitin artırılmasında yeni təcrübələr, 2014, ECNL, www.ecnl.org

“Xarici donorlar tərəfindən Azərbaycan Respublikasının ərazisində qrant vermək hüququnun əldə edilməsi Qaydası”na
**əlavə**

**Qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyin əldə edilməsi barədə ərizənin forması**

______________________________________________
(qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyi verən orqanın adı)

______________________________________________
(müraciət edən təşkilatın adı, təşkilati-hüquqi forması)

______________________________________________
(müraciət edən təşkilatın qeydiyyat tarixi, nömrəsi, VÖEN-i, bank rekvizitləri, hüquqi ünvanı)

______________________________________________
(qanuni təmsilçinin soyadı, adı, atasının adı, işlədiyi yer və vəzifəsi, ünvanı, şəxsiyyətini təsdiq edən sənədinin nömrəsi, verildiyi tarix və vəsiqəni vermiş orqanın adı, dövlət reyestrindən çıxarışının nömrəsi, tarixi)

tərəfindən

**Ə R İ Z Ə**

Xarici donor qismində çıxış edən

______________________________________________
(hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, mənsub olduğu ölkə, qeydiyyat nömrəsi və tarixi, qeydiyyata almış orqan)

və qrant müqaviləsi üzrə resipiyent qismində çıxış edən[i]

______________________________________________
(hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, mənsub olduğu ölkə, qeydiyyat nömrəsi və tarixi, qeydiyyata almış orqan)

arasında

______________________________________________
(müqavilənin adı)

qrant *müqaviləsi bağlanılmışdır (qərarı verilmişdir).*

Qrantın məqsədi

______________________________________________

məbləği və ya başqa maddi formada əşya barədə məlumat

______________________________________________
(rəqəmlə və sözlə, valyuta göstərilməklə)

icra müddəti

(başlandığı və bitdiyi müddət)

Xarici donorun qrant vermək üçün maliyyələşdirmə mənbəyi və əvvəllər maliyyələşdirdiyi sahələr

Qoşma (ərizəyə əlavə olunan sənədlərin siyahısı və vərəqlərin sayı göstərilməklə)

(əlavə edilən sənədlər barədə məlumatlar ayrı-ayrı sətirlərdə göstərilir)

Göstərilənləri nəzərə alaraq, qeyd olunmuş qrantın maliyyə-iqtisadi məqsədəmüvafiqliyinə dair rəyin verilməsini xahiş edirik.

Müraciəti imzalamış şəxsin

soyadı, adı, atasının adı, vəzifəsi və
imzası_____________________________________________

(təşkilatın möhürü ilə təsdiq edilir)

Tarix____________

Əlaqə telefonları (faks nömrəsi, elektron poçt ünvanı)

________________________

**Qrant müqaviləsinin (qərarının) qeydə alınmasına dair ərizənin forması**
**(fiziki şəxs üçün)**

(qrantın qeydiyyatını aparan orqanın adı)

(müraciət edən şəxsin soyadı, adı, atasının adı, yaşadığı ünvan)

(müraciət edən şəxsin şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, verildiyi tarix, vəsiqəni vermiş orqan)

tərəfindən

# Ə R İ Z Ə

Donor qismində çıxış edən

(fiziki şəxs olduqda soyadı, adı, atasının adı, ünvanı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, verildiyi tarix və vəsiqəni vermiş orqan, işlədiyi yer və vəzifəsi, hüquqi şəxs olduqda adı, təşkilati-hüquqi forması, mənsub olduğu ölkə, qeydiyyat nömrəsi və tarixi)

və resipiyent qismində çıxış edən

(fiziki şəxs olduqda soyadı, adı, atasının adı, ünvanı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, verildiyi tarix və vəsiqəni vermiş orqan, işlədiyi yer və vəzifəsi, hüquqi şəxs olduqda adı, təşkilati-hüquqi forması, mənsub olduğu ölkə, qeydiyyat nömrəsi və tarixi)

arasında

(müqavilənin (qərarın) adı və bağlanıldığı (verildiyi) tarix)

qrant müqaviləsi bağlanılmışdır (qərarı verilmişdir).
Qrantın məqsədi

məbləği

(rəqəmlə və sözlə, valyuta göstərilməklə)

icra müddəti

(başladığı və bitdiyi müddət)

Qoşma (əlavə olunan sənədlərin siyahısı və vərəqlərin sayı göstərilməklə)

(əlavə edilən sənədlər barədə məlumatlar ayrı-ayrı sətirlərdə göstərilir)

**Göstərilənləri nəzərə alaraq, qrant müqaviləsinin qeydə alınmasını xahiş edirəm.**

**Müraciəti imzalamış şəxsin soyadı, adı,**
**atasının adı, vəzifəsi və imzası**

**Tarix**

**Əlaqə telefonu**

“Qrant müqavilələrinin (qərarlarının) qeydə alınması Qaydası”na
**2 nömrəli əlavə**

**Qrant müqaviləsinin (qərarının) qeydə alınmasına dair ərizənin forması**
**(hüquqi şəxs üçün)**

________________________________________
(qrantın qeydiyyatını aparan orqanın adı)

(müraciət edən təşkilatın adı, təşkilati-hüquqi forması)

(müraciət edən təşkilatın qeydiyyat tarixi, nömrəsi, hüquqi ünvanı)

(qanuni təmsilçinin soyadı, adı, atasının adı, işlədiyi yer və vəzifəsi, ünvanı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, verildiyi tarix və vəsiqəni vermiş orqan, dövlət reyestrindən çıxarışın nömrəsi, tarixi)

tərəfindən

# Ə R İ Z Ə

Donor qismində çıxış edən

(fiziki şəxs olduqda soyadı, adı, atasının adı, ünvanı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, verildiyi tarix və vəsiqəni vermiş orqan, işlədiyi yer və vəzifəsi, hüquqi şəxs olduqda adı, təşkilati-hüquqi forması, mənsub olduğu ölkə, qeydiyyat nömrəsi və tarixi)

və resipiyent qismində çıxış edən________________________________________

(fiziki şəxs olduqda soyadı, adı, atasının adı, ünvanı, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, verildiyi tarix və vəsiqəni vermiş orqan, işlədiyi yer və vəzifəsi, hüquqi şəxs olduqda adı, təşkilati-hüquqi forması, mənsub olduğu ölkə, qeydiyyat nömrəsi və tarixi)

arasında____________________________________________________

(müqavilənin (qərarın) adı və bağlanıldığı (verildiyi) tarix)

qrant müqaviləsi bağlanılmışdır (qərarı verilmişdir).

Qrantın məqsədi_______________________________________________

məbləği___________________________________________________________________

(rəqəmlə və sözlə, valyuta göstərilməklə)

icra müddəti______________________________________________________________

(başladığı və bitdiyi müddət)

Qoşma (əlavə olunan sənədlərin siyahısı və vərəqlərin sayı göstərilməklə)

(əlavə edilən sənədlər barədə məlumatlar ayrı-ayrı sətirlərdə göstərilir)

**Göstərilənləri nəzərə alaraq, qrant müqaviləsinin qeydə alınmasını xahiş edirik.**

**Müraciəti imzalamış şəxsin soyadı, adı,**
**atasının adı, vəzifəsi və imzası**
(təşkilatın möhürü ilə təsdiq edilir)

**Tarix**

**Əlaqə telefonları**

"Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilələrin qeydiyyata alınması Qaydası"na

1 nömrəli əlavə

**Qeyri-hökumət təşkilatları, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən xarici maliyyə mənbələri hesabına xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilənin qeydiyyata alınmasına dair ərizənin forması**

____________________________________________

(müqavilənin qeydiyyatını aparan orqanın adı)

______________________________________________________________________

(müraciət edən qeyri-hökumət təşkilatının, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin adı, təşkilati-hüquqi forması)

______________________________________________________________________

(müraciət edən qeyri-hökumət təşkilatının, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin qeydiyyat tarixi, nömrəsi, hüquqi ünvanı, mənsub olduğu ölkə)

______________________________________________________________________

(qanuni təmsilçinin adı, soyadı, atasının adı, yaşadığı ünvan, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi)

tərəfindən

**Ə R İ Z Ə**

Göstərilən xidmətlərin və ya görülən işlərin sifarişçisi qismində çıxış edən__________________________________________________________

(hüquqi şəxsin adı, təşkilati-hüquqi forması, mənsub olduğu ölkə, qeydiyyat nömrəsi və tarixi, fiziki şəxs olduqda adı, soyadı, atasının adı, yaşadığı ünvan, işlədiyi yer və vəzifəsi, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi, verildiyi tarix və sənədi vermiş orqan)

xidmət göstərən (iş görən) qeyri-hökumət təşkilatı qismində çıxış edən

______________________________________________________________________

(adı, təşkilati-hüquqi forması, qeydiyyat tarixi, nömrəsi, hüquqi ünvanı, mənsub olduğu ölkə)

arasında ____________tarixində___________________________________________________

(müqavilənin adı)

xidmətlərin göstərilməsi və ya işlərin görülməsi haqqında müqavilə bağlanılmışdır.

Göstərilən xidmət (görülən iş) ______________________________________________

______________________________________________________________________

(qısa məlumat)

Göstərilən xidmətə (görülən işə) görə ödənilən məbləğ__________________________

(rəqəmlə və sözlə, valyuta göstərilməklə)

______________________________________________________________________

| | |
|---|---|
| Müqavilənin icra müddəti______________________________________________ | |
| Göstərilənləri nəzərə alaraq, qeyd olunmuş xidmət (iş) müqaviləsinin qeydiyyata alınmasını xahiş edirik. | |
| Qoşma (əlavə olunan sənədlərin siyahısı və vərəqlərin sayı göstərilməklə) _______ | |
| ______________________________________________________________________ | |
| ______________________________________________________________________ | |
| (qoşulan sənədlər barədə məlumatlar ayrı-ayrı sətirlərdə göstərilir) | |
| | |
| Müraciəti imzalamış şəxsin<br>adı, soyadı, atasının adı, vəzifəsi və imzası ____________________________________<br>(təşkilatın möhürü ilə təsdiq edilir) | |
| | |
| Tarix_________________<br>Əlaqə telefonları________________ | |

"Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qəbul etdiyi ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatların təqdim edilməsi Qaydası"na

1 nömrəli əlavə

**Qeyri-hökumət təşkilatının, habelə xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin qəbul etdiyi ianələrin və ianəni vermiş şəxslər barədə məlumatların reyestrə daxil edilməsinə dair ərizənin forması**

__________________________________________________

(müraciət edilən dövlət orqanının adı)

_____________________________________________________________________

(müraciət edən qeyri-hökumət təşkilatının, habelə xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinin adı, hüquqi ünvanı, VÖEN-i)

______________________________________________________________________

(qanuni təmsilçinin adı, soyadı, atasının adı, yaşadığı ünvan, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi)

tərəfindən

______________________________________________________________________

# Ə R İ Z Ə

Bildiririk ki, ianə verən
______________________________________________________________________
___
(hüquqi şəxsin adı, fiziki şəxs olduqda adı, soyadı, atasının adı, yaşadığı ünvan, şəxsiyyətini təsdiq edən sənədin nömrəsi)

tərəfindən ________________ tarixində ianə qəbul edən

______________________________________________________________________
(qeyri-hökumət təşkilatının adı)
______________________________________________________________________
(məbləğ (valyuta göstərilməklə), əmlak olduğu halda tərkibi)

ianə verilmişdir.

Göstərilənləri nəzərə alaraq, qeyd olunmuş ianə barədə məlumatların reyestrə daxil edilməsini və bu barədə müvafiq bildirişin verilməsini xahiş edirik.

Qoşma (əlavə olunan sənədlərin siyahısı və vərəqlərin sayı göstərilməklə):
______________________________________________________________________
(əlavə olunan sənədlər barədə məlumatlar ayrı-ayrı sətirlərdə göstərilir)

İanəni qəbul edənin (onun nümayəndəsinin)
adı, soyadı, atasının adı, vəzifəsi və imzası
________________________________________
(təşkilatın möhürü ilə təsdiq edilir)

Tarix: ___ ____________20___il

Əlaqə telefonları:

## Könüllü fəaliyyət haqqında müqavilə

**1. Könüllü fəaliyyət haqqında müqaviləni bağlayan tərəflər haqqında məlumatlar**
Bu Könüllü fəaliyyət haqqında müqavilə, (bundan sonra «Müqavilə») könüllü fəaliyyətin təşkilatçısı səlahiyyətlərini həyata keçirən ____________________________________________________________
*(idarənin, müəssisənin, təşkilatın adı)*
tərəfindən ______________ ______________________________________________ şəxsində bir tərəfdən
*(vəzifəsinin adı) (adı, atasının adı və soyadı)*
və digər tərəfdən

könüllü ____________________________________________________________________
*(adı, atasının adı və soyadı)*
____________________________________________________________________________________
arasında
*(vətəndaşlığı, şəxsiyyətini təsdiq edən sənəd, onun nömrəsi, verildiyi tarix və onu verən orqanın adı)*

«___»____________ _____il tarixində Azərbaycan Respublikasının Könüllü fəaliyyət haqqında Qanununa və digər qanunlarına müvafiq olaraq bağlanmışdır.

**2. Müqavilənin müddəti**
2.1. Bu Müqavilə (____) ay müddətinə bağlanılır.
2.2. Könüllü «___»______ __________ _____il tarixindən əvəzi ödənilməyən fəaliyyətə başlayır.

**3. Könüllünün hüquqları**
3.1. Könüllünün aşağıdakı hüquqları vardır:
- Müqaviləyə uyğun olaraq həyat və sağlamlığının mühafizəsini təmin edən əmək şəraitinin yaradılmasını, zəruri hallarda isə əməyin mühafizəsinin normaları və qaydaları haqqında təlim keçirilməsini tələb etmək;
- könüllü fəaliyyətin şərtləri və xarakteri haqqında informasiya əldə etmək;
- könüllü fəaliyyət haqqında informasiya yaymaq;
- könüllü fəaliyyətin təşkilatçılarından görülən işlərin yeri, həcmi, xarakteri və vaxtı göstərilməklə, könüllü fəaliyyət haqqında yazılı arayış almaq;
- könüllü fəaliyyət könüllünün daimi yaşadığı yaşayış məntəqəsinin hüdudlarından kənarda həyata keçirildikdə gündəlik xərclərin ödənilməsini könüllü fəaliyyətin təşkilatçılarından tələb etmək;
- könüllü fəaliyyəti həyata keçirərkən həyatına və sağlamlığına dəymiş zərərin əvəzini könüllü fəaliyyətin təşkilatçılarından almaq;
- sığorta olunmaq;
- öz əmlakından istifadəyə görə kompensasiya almaq.

**4. Könüllünün vəzifələri**
4.1. Könüllü aşağıdakı işləri görməyi və xidmətləri göstərməyi öz öhdəsinə götürür:
a) ______________________________________________________________________;
b) ______________________________________________________________________;
c) ______________________________________________________________________;

4.2. Könüllünün vəzifələri aşağıdakılardır:
- Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq əməyin mühafizəsi və təhlükəsizlik qaydalarına riayət etmək;
- fəaliyyət göstərdiyi təşkilatın nizamnaməsinə və intizam qaydalarına riayət etmək;
- könüllü fəaliyyət təşkilatçılarının tələbi ilə könüllü fəaliyyət haqqında məlumat və ya hesabat təqdim etmək;
- könüllü fəaliyyət haqqında müqavilənin şərtlərinə və könüllü fəaliyyətin təşkilatçılarının müqavilənin şərtlərinə uyğun göstərişlərinə əməl etmək;
- vurduğu maddi ziyana görə məsuliyyət daşımaq;
- Azərbaycan Respublikasının qanunvericiliyi ilə müəyyən olunmuş konfidensial informasiyanı gizli saxlamaq.

**5. Könüllü fəaliyyətin təşkilatçısının hüquq və vəzifələri**

5.1. Könüllü fəaliyyətin təşkilatçısının aşağıdakı vəzifələri vardır:

- Könüllünün sağlamlığının, əməyinin mühafizəsinin təmin olunması üçün sanitariya və gigiyena normalarına cavab verən iş yeri və iş şəraiti yaratmaq.
- Könüllünün həyat və sağlamlığını sığortalamaq.
- Könüllünün tələbi ilə könüllü fəaliyyətin haqqında müvafiq arayışlar vermək.

5.2. Könüllü fəaliyyətin təşkilatçısının aşağıdakı hüquqları vardır:

- könüllülərdən müqavilədən irəli gələn öhdəliklərin vaxtında və keyfiyyətlə yerinə yetirilməsini tələb etmək;
- görülmüş işlər haqqında könüllülərdən məlumat və ya hesabat almaq;
- könüllü fəaliyyət həyata keçirilərkən könüllü tərəfindən vurulmuş maddi ziyanın ödənilməsi üçün Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun olaraq tədbirlər görmək.

**6. İş və istirahət vaxtı üzrə**

6.1. Könüllü gündə 8 saatdan, həftə ərzində isə 40 saatdan çox olmayaraq işləyir.
6.2. İş saat ______ başlanır, saat ____ qurtarır və gün ərzində ümumi iş vaxtı _____ saat təşkil edir.
6.3. Nahar vaxtı saat __________________-dan saat ___________________-dəkdir.
6.4. İstirahət günləri hər həftənin ______________________________ günləridir.

**7. Mülkiyyət münasibətlərinin tənzimlənməsi**

7.1. Könüllü işin icrası zamanı özünün aşağıdakı şəxsi əmlakından istifadə edir:
a) _____________________________________________________________________________;
b) _____________________________________________________________________________.
7.2. Könüllü fəaliyyətin təşkilatçısı könüllünün qeyd edilən şəxsi əmlakına hər hansı bir səbəbdən dəyən maddi ziyanın ödənilməsinə görə məsuliyyət daşımır.

**8. Müqaviləyə dəyişikliklər və əlavələrin edilməsi**

8.1. Bu Müqaviləyə yalnız hər iki tərəfin razılığı olduqda əlavə və dəyişikliklər edilə bilər.
8.2. Müqaviləyə edilən əlavə və dəyişikliklər yazılı şəkildə olmalıdır.

**9. Müqaviləyə xitam verilməsi**

9.1. Müqavilə hər hansı bir tərəfin 1 həftə qabaqcadan yazılı məlumat verməklə vaxtından əvvəl ləğv edilə bilər.

**10. Yekun qaydalar**

10.1. Bu müqavilənin icrasında irəli gələn bütün mübahisələr tərəflər arasında həll olunmalıdır. Bu mümkün olmadıqda mübahisə Azərbaycan Respublikası qanunvericiliyinə uyğun olaraq məhkəmə qaydasında həll olunmalıdır.
10.2. Bu Müqavilə iki nüsxədə tərtib edilib, onlardan biri könüllüdə, digəri isə könüllü fəaliyyətinin təşkilatçısında saxlanılır.
10.3. Tərəflər bu Müqavilə üzrə öhdəliklərinin icrasını üçüncü şəxslərə həvalə edə bilməzlər.

**11. Tərəflərin imzaları**

| | |
|---|---|
| **Könüllü** | **Könüllü fəaliyyətinin təşkilatçısı** |
| *(adı, atasının adı və soyadı)* | *(idarənin, müəssisənin, təşkilatın adı)* |
| *(imza)* | *(imza) (möhür)* |

## XİDMƏT MÜQAVİLƏSİ
***(nümunə)***

Bakı şəhəri 01 avqust 2017-ci il

Bundan sonra **"İcraçı"** adlandırılacaq Azərbaycan Bağbanlar Birliyi İctimai Birliyi (VÖEN ______________) bir tərəfdən, bundan sonra **"Sifarişçi"** adlandırılacaq Bağban MMC (VÖEN ______________) direktor ______________şəxsində digər tərəfdən, aşağıdakı şərtlər daxilində xidmət müqaviləsi imzalamışlar:

### 1. Müqavilənin şərtləri

**1.1** "İcraçı" "Sifarişçi"-yə təlimçi xidmətləri göstərməyi öz üzərinə götürür.
**1.** "Sifarişçi**"** göstərilən xidmətlərin əvəzində hər təlim günü üçün 100 (yüz) manat xidmət haqqı ödəməyi öhdəsinə götürür. Ödəniş iş təhvil verildikdən 7 gün ərzində köçürmə və ya nağd şəkildə edilir. Tərəflərin razılığı ilə göstərilən xidmətin həcmindən və əlavə sifarişlərdən asılı olaraq xidmət haqqı artırıla və ya azaldıla bilər.

### 2. Yekun müddəalar

**2.1** Xidmət müqaviləsinin şərtlərinin dəyişdirilməsinə və onun pozulmasına tərəflərin qarşılıqlı razılığı ilə yol verilir.
**2.2** Xidmət müqaviləsi aşağıdakı hallarda pozula bilər:

- "Sifarişçi" xidmət haqqını ödəməkdikdə;
- "İcraçı" müqavilənin göstərilən şərtlərini yerinə yetirmədikdə;
- "İcraçı" "Sifarişçi"yə 2 (iki) həftə öncədən məlumat verdikdə;
- "Sifarişçi" "İcraçı"ya 1 (bir) həftə öncədən məlumat verdikdə.

**2.3** Məsuliyyətə dair əmələ gələn mübahisələr məhkəmə yolu ilə həll oluna bilər.
**2.4** Müqavilə tərəflərin imzaladığı andan qüvvəyə minir. Müqavilənin müddəti 01 avqust 2017-ci il tarixdən 31 dekabr 2017-ci il tarixə qədər müəyyən edilib. Müqavilə müddəti tərəflərin razılığı ilə uzadıla bilər.
**3.5** Müqavilə tərəflərdən hər birinə 1 (bir) nüsxə verilməklə 2 (iki) nüsxədə tərtib edilib.

### Tərəflər:

| "İcraçı": | "Sifarişçi": |
|---|---|
| Azərbaycan Bağbanlar Birliyi<br>(VÖEN ____________)<br><br>Mob: ____________ | Bağban MMC (VÖEN ____________)<br><br>*Tel:* |

## Azərbaycan Respublikasının İnzibati Xətalar Məcəlləsi

(çıxarışlar)

***Maddə 432. Qrant alınması (verilməsi) haqqında qanunvericiliyin pozulması***

432.1. Qrant verən Azərbaycan Respublikasının hüquqi və ya fiziki şəxsi, yaxud Azərbaycan Respublikasının hüquqi şəxsinin filial və ya nümayəndəliyi olan donorlar və ya qrant alan Azərbaycan Respublikasının resipiyentləri tərəfindən qrant alınması (verilməsi) haqqında müqavilələrin və qərarların qeydiyyat üçün qanunvericiliklə müəyyən edilmiş müddətlərdə müvafiq icra hakimiyyəti orqanına təqdim edilməməsinə görə—

- fiziki şəxslər min manatdan iki min manatadək məbləğdə, vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

432.2. Dini qurumlar tərəfindən qrant alınması (verilməsi) haqqında müqavilələrin və qərarların müvafiq icra hakimiyyəti orqanında qeydiyyata alınmadan həmin qrantlardan istifadə və onlar üzrə əməliyyatlar aparılmasına görə—

- vəzifəli şəxslər min beş yüz manatdan iki min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

432.3. Qrant müqaviləsi (qərarı) olmadan Azərbaycan Respublikasında fəaliyyət göstərən dini qurumlar, qeyri-hökumət təşkilatları, o cümlədən xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və nümayəndəlikləri tərəfindən maliyyə vəsaiti şəklində və (və ya) başqa maddi formada yardımın qəbul edilməsinə görə—

- inzibati xətanın bilavasitə obyekti olmuş vəsait və əşyalar müsadirə olunmaqla vəzifəli şəxslər iki min beş yüz manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər səkkiz min manatdan on beş min manatadək məbləğdə cərimə edilir.

432.4. Qeyri-hökumət təşkilatları, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri, yaxud banklar tərəfindən «Qrant haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada qeydiyyata alınmamış qrant alınması (verilməsi) haqqında müqavilələr (qərarlar) üzrə bank əməliyyatlarının və hər hansı digər əməliyyatların aparılmasına görə—

- vəzifəli şəxslər iki min beş yüz manatdan beş min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

**Qeyd:** «Dini etiqad azadlığı haqqında» və «Qeyri-hökumət təşkilatları (ictimai birliklər və fondlar) haqqında» Azərbaycan Respublikasının qanunlarında nəzərdə tutulan ianələrə və dövlət hakimiyyəti orqanlarının yardımlarına bu Məcəllənin 432.3-cü maddəsinin qüvvəsi şamil edilmir.

***Maddə 465. İanələr barədə məlumatın maliyyə hesabatına daxil edilməməsi***

*Qeyri-hökumət təşkilatı, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatının filial və nümayəndəliyi tərəfindən müvafiq icra hakimiyyəti orqanına və ya siyasi partiya tərəfindən Azərbaycan Respublikasının Mərkəzi Seçki Komissiyasına təqdim olunan maliyyə hesabatına qəbul edilmiş ianələrin məbləği və ianəni vermiş şəxslər barədə məlumatın daxil edilməməsinə görə —*

- vəzifəli şəxslər min beş yüz manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir. (4)

***Maddə 466. İanə edilən pul vəsaitlərinin nağd şəkildə verilməsi və qəbul edilməsi***

466.1. İanə edilən pul vəsaitlərinin siyasi partiyaya və ya qeyri- hökumət təşkilatına, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyinə nağd şəkildə verilməsinə görə—

- fiziki şəxslər iki yüz əlli manatdan beş yüz manatadək məbləğdə, vəzifəli şəxslər yeddi yüz əlli manatdan min beş yüz manatadək məbləğdə, hüquqi şəxslər üç min beş yüz manatdan yeddi min manatadək məbləğdə cərimə edilir.

466.2. İanə edilən pul vəsaitlərinin siyasi partiya və ya qeyri- hökumət təşkilatı, o cümlədən xarici dövlətin qeyri-hökumət təşkilatının filial və ya nümayəndəliyi tərəfindən nağd şəkildə qəbul edilməsinə görə—

- vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər yeddi min manatdan on min manatadək məbləğdə cərimə edilir.

**Qeyd:** Azərbaycan Respublikasında fəaliyyət göstərən, nizamnaməsinə əsasən başlıca məqsədi xeyriyyəçilik olan qeyri- hökumət təşkilatına nağd şəkildə verilən və həmin təşkilat tərəfindən nağd şəkildə qəbul edilən iki yüz manatadək ianələrə bu maddənin qüvvəsi şamil edilmir.

***Maddə 579. Qeyri-hökumət təşkilatları haqqında qanunvericiliyin pozulması***

Qeyri-hökumət təşkilatları, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri tərəfindən qanunla müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmamış dəyişikliklər (təsis sənədlərində edilmiş və ya hüquqi şəxslərin dövlət reyestrində əvvəllər qeydə alınmış faktların sonrakı dəyişikliyi) əsasında hər hansı fəaliyyətin həyata keçirilməsinə, ictimai birlik tərəfindən onun üzvlərinin reyestrinin aparılmamasına, sahibkarlıq fəaliyyəti nəticəsində əldə edilmiş gəlirin təşkilatın məqsədlərinə yönəldilməməsinə, könüllü fəaliyyətə cəlb edilmiş şəxslərlə müqavilələrin bağlanılmamasına, nizamnaməsində (əsasnaməsində) nəzərdə tutulmuş məqsədlərə zidd fəaliyyət göstərməsinə görə—

- vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir.

***Maddə 580. Qeyri-hökumət təşkilatlarının, xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və qanunvericiliyə uyğunluğunun öyrənilməsinə maneələrin törədilməsi***

Müvafiq icra hakimiyyəti orqanı tərəfindən qeyri-hökumət təşkilatlarının, xarici qeyri-hökumət təşkilatının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəliklərinin fəaliyyətinin onların nizamnamələrinə (əsasnamələrinə) və Azərbaycan Respublikasının qanunvericiliyinə uyğunluğunun öyrənilməsinə maneələrin yaradılmasına, o cümlədən sorğulara cavab verilməməsinə, tələb olunan sənədlərin və məlumatların təqdim edilməməsinə, yanlış məlumatların verilməsinə görə—

- vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir.

***Maddə 581. Qeyri-hökumət təşkilatları, xarici dövlətlərin qeyri- hökumət təşkilatlarının filial və ya nümayəndəlikləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların vaxtında aradan qaldırılmaması***

Qeyri-hökumət təşkilatları, xarici qeyri-hökumət təşkilatlarının Azərbaycan Respublikasındakı filial və ya nümayəndəlikləri tərəfindən müvafiq icra hakimiyyəti orqanının xəbərdarlığında və ya göstərişində bildirilmiş pozuntuların vaxtında aradan qaldırılmamasına görə—

- vəzifəli şəxslər min manatdan iki min manatadək məbləğdə, hüquqi şəxslər iki min beş yüz manatdan üç min manatadək məbləğdə cərimə edilir.

***Maddə 582. Xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin fəaliyyət göstərməsi qaydalarının pozulması***

Xarici dövlətlərin qeyri-hökumət təşkilatlarının filial və ya nümayəndəliklərinin «Hüquqi şəxslərin dövlət qeydiyyatı və dövlət reyestri haqqında» Azərbaycan Respublikasının Qanunu ilə müəyyən edilmiş qaydada dövlət qeydiyyatına alınmadan fəaliyyət göstərməsinə görə—

- fiziki şəxslər min manatdan iki min manatadək məbləğdə, vəzifəli şəxslər iki min manatdan üç min manatadək məbləğdə, hüquqi şəxslər beş min manatdan səkkiz min manatadək məbləğdə cərimə edilir.

---

**İanə müqaviləsi**
**(hüquqi şəxs tərəfindən maddi formada verilən ianəyə dair)**

__ ________ ____-ci il

Bundan sonra "İanə verən" adlandırılacaq ________________ (hüquqi şəxsin adı, VÖEN-i, hüquqi ünvanı) bir tərəfdən və bundan sonra "İanə alan" adlandırılacaq ____________________ (QHT-nin adı, VÖEN-i, hüquqi ünvanı) digər tərəfdən aşağıdakı şərtlərlə bu müqaviləni bağlayırlar. İanə verən və İanə alan bundan sonra ayrı-ayrılıqda "Tərəf", birlikdə "Tərəflər" adlandırıla bilər.

1. Müqavilənin predmeti

İanə verən ________________ (qeyd olunan əşyaları) ianə olaraq, əvəzsiz şəkildə İanə alanın mülkiyyətinə verir və İanə alan həmin ianəni qəbul edir.

2. İanədən istifadə

İanə verən qeyd olunan əşyaları İanə alana təmənnasız şəkildə verir və onlardan istifadə üçün İanə alanın üzərinə hər hansı nəticəyə nail olmaq vəzifəsi qoymur. Bununla bərabər, İanə alan həmin əşyalardan Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə ictimai fayda kəsb edən məqsədlər üçün istifadə etməlidir.

Tərəflərin bank rekvizitləri və imzaları:

| | |
|---|---|
| İanə verən: ____________ | İanə alan: _______________ |
| VÖEN: ______________ | VÖEN: _________________ |
| H/hesabı:______________ | H/hesabı: _______________ |
| Bank: _________________ | Bank: ___________________ |
| Kod: _________________ | Kod: ___________________ |
| Bankın VÖEN: __________ | Bankın VÖEN: ___________ |
| Müxbir hesab: ___________ | Müxbir hesab: ____________ |
| SWIFT: ______________ | SWIFT: ________________ |

___________________ _____________________

---

**İanə müqaviləsi**
**(fiziki şəxs tərəfindən pul vəsaiti olaraq verilən ianəyə dair)**

__ ________ ____-ci il

Bundan sonra "İanə verən" adlandırılacaq ________________ (fiziki şəxsin tam adı, şəxsiyyət vəsiqəsinin seriyası, nömrəsi, şəxsiyyət vəsiqəsini verən orqanın adı, verilmə tarixi, fiziki şəxsin qeydiyyatda olduğu ünvan) bir tərəfdən və bundan sonra "İanə alan" adlandırılacaq ____________________ (QHT-nin adı, VÖEN-i, hüquqi ünvanı) digər tərəfdən aşağıdakı şərtlərlə bu müqaviləni bağlayırlar. İanə verən və İanə alan bundan sonra ayrı-ayrılıqda "Tərəf", birlikdə "Tərəflər" adlandırıla bilər.

1. Müqavilənin predmeti
İanə verən ________________ məbləğdə ianəni İanə alana verir və İanə alan həmin ianəni qəbul edir.

2. İanədən istifadə
İanə verən bu məbləği İanə alana təmənnasız şəkildə verir və onun üzərinə ianədən istifadə ilə bağlı hər hansı məqsədə nail olmaq vəzifəsi qoymur. Bununla bərabər, İanə alan həmin əşyalardan Azərbaycan Respublikasının qanunvericiliyinə uyğun şəkildə ictimai fayda kəsb edən məqsədlər üçün istifadə etməlidir.

3. Bank hesabına köçürmə
İanə verən yuxarıda göstərilmiş məbləği İanə alanın ___________________ bank hesabına köçürür.

4. Hesabatlılıq öhdəliyi
İanə alan Azərbaycan Respublikasının qanunvericiliyinə əsasən bu ianənin alınmasından irəli gələn müvafiq orqanlara hesabat təqdim etmək öhdəliyini öz üzərinə götürür.

5. Tətbiq edilən qanunvericilik və mübahisələrin həlli
5.1. Bu müqavilə Azərbaycan Respublikasının qanunvericiliyinə müvafiq olaraq tərtib edilmişdir və onunla tənzimlənir.
5.2. Tərəflər bu müqavilədən irəli gələn bütün mübahisə və anlaşılmazlıqları ilk növbədə danışıqlar yolu ilə həll edəcəklər, bu mümkün olmadıqda Azərbaycan Respublikasının səlahiyyətli məhkəmələrinə müraciət olunacaq.

Tərəflərin bank rekvizitləri və imzaları:

| İanə verən: | İanə alan: |
|---|---|
| VÖEN: _______________ | VÖEN: __________________ |
| H/hesabı:______________ | H/hesabı: _________________ |
| Bank: ________________ | Bank: ____________________ |
| Kod: ____________ | Kod: ____________________ |
| Bankın VÖEN: ________ | Bankın VÖEN: ____________ |
| Müxbir hesab: _________ | Müxbir hesab: ____________ |
| SWIFT: _____________ | SWIFT: _________________ |

**İanənin verilməsinə dair Akt**
**(ianə əşya olduğu təqdirdə)**

____________ ____ ___ __________ ci il

Tərəflər təsdiq edirlər ki, ____________ tarixli Müqaviləyə əsasən ianə verən aşağıda göstərilən əşyanı ianə şəklində ianə alanın mülkiyyətinə verir, ianə alan isə onu qəbul edir. _________________ (əşyanı xarakterizə edən əlamətlər, model, marka, seriya nömrəsi və s.).

Tərəflərin imzaları: